www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet 8 iyul 2015-ci il   Cümə axşamı № 148  (6176)  Qiymәti   40 qәpik

**Xəbər**

## Azərbaycanda evdən qaçan 17 yaşlı qızı qardaşı öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Əli Kərimlinin müavininin qəfil istefasının sensasion səbəbləri...



Əbülfəz Qurbanlının ikinci dəfə istefasına dair versiyalar çoxdur; sabiq şöbə müdirinin müsahibəsi gənc müavinin getməsinə səbəb ola bilərmi?; qurumda qarşıdakı günlərdə də istefalar gözlənilir

yazısı səh.3-də

### ABŞ səfirliyi bəyanat yaydı: "Azərbaycanda çevriliş hazırlamırıq"

yazısı səh.2-də

### SOCAR dövlət büdcəsinə ödənişləri azaltdı

yazısı səh.4-də

### Poroşenko Avropa Oyunları ilə bağlı İlham Əliyevi təbrik etdi

yazısı səh.5-də

### Eynulla Fətullayevdən deputatın fikirlərinə növbəti sərt cavab

yazısı səh.7-də

### Xolesterinli qida - səhhətin düşməni, yoxsa müttəfiqi?

yazısı səh.15-də

### Azərbaycanda altı özəl tibb müəssisəsinin fəaliyyəti dayandırıldı

yazısı səh.2-də

### Tövlədə yaşayan şəhid anası prezidentdən kömək istədi...

yazısı səh.15-də

### Mərkəzi Bank manatın növbəti devalvasiyasına gedə bilər

yazısı səh.12-də

### Suriyada 1000-ə yaxın azərbaycanlı vuruşur

yazısı səh.10-da

**Ramazan ayının 22-ci günü**

İftar 21.30. İmsaq (azan) 4.50 (QMI)

22-ci günün duası: "İlahi, bu gün Öz ehsan və kərəm qapılarını mənim üzümə aç və Öz bərəkətini mənə nazil et! Məni belə bir gündə Sənin razılığın olan əməlləri etməyə müvəffəq et! Məni Öz cənnətinin ən gözəl yerində məskunlaşdır! Ey çarəsizlərin duasını Qəbul Edən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

Bu gün 3-cü Qədr gecəsidir.

## Seçki ilində yaranıb seçki ilində "qürub edən" rus projesi

# "MİLYARDERLƏR İTTİFAQI"NIN QƏFİL BURAXILMASININ ŞOK SƏBƏBİ

RATİ-nin mərkəzi fiquru Abbas Abbasovun hakimiyyətə son reveransının sirri; baş nazirin "İstiqlal" ordenli sabiq 1-ci müavini bununla özünü, deputat oğlunu və ətrafında mühasirəsi daralan digər yaxınlarını qurtara biləcəkmi? **Söyün Sadıqov:** "O, vətən xaini və satqındır, ondan istənilən alçaqlığı gözləmək olar..."



yazısı səh.5-də

## Ziya Məmmədov "qara zolaqda": namus cinayəti, Yay Oyunlarına "terror"...

Avropa Oyunlarında rəhbərlik etdiyi federasiyanın medalsız qalması, məlum "qəza" və qardaşının villasındakı məşum qətl nəqliyyat nazirinə ardıcıl zərbələr vurub; yol tikintisinə ayrılan pullardan da kənarda qalan Z. Məmmədov yaxınlarından şikayətçidir...

yazısı səh.4-də



### Hacı Məmmədov gününü "boevik" filmlərə baxmaqla keçirir

yazısı səh.3-də



*Bayram Səfərov:*

### "Azərbaycanla Böyük Britaniyanın münasibətlərinə xələl gətirmək istəyirlər"

yazısı səh.8-də



*Rauf Arifoğlu:*

### "Seçim anıdır, bunu etmişəm, geriyə yol yoxdur"

yazısı səh.4-də

# 9 iyul 2015



## Azay Quliyev yenidən ATƏT PA-nın Büro üzvü və Komitə sədrinin müavini seçildi

**İyulun 8-də Helsinkidə, ATƏT Parlament Assambleyasının 24-cü yay sessiyası çərçivəsində, qurumun Siyasi məsələlər və təhlükəsizlik komitəsinin (1-ci komitə) iclasında rəhbər vəzifələrə seçkilər keçirilib. Milli Məclisdən Trend-ə bildiriblər ki, azərbaycanlı millət vəkili Azay Quliyev 3-cü dəfə Komitə sədrinin müavini və Assambleyanın Büro üzvü vəzifəsinə seçilib.**

Eyni zamanda, Amerikalı senator Roger Viker təkrar olaraq Komitənin sədri, İsveçli Marqarita Kaderfelt isə ilk dəfə olaraq Komitənin məruzəçisi vəzifəsinə seçilib.

Xatırladaq ki, Azay Quliyev 2013-cü ildə ATƏT PA-nın İstanbulda keçirilən illik sessiyasından etibarən bu vəzifəni tutur.

## Azərbaycanda dərmanların ilkin tənzimlənmə siyahısı müəyyən olunub

**"Azərbaycanda əhali tərəfindən daha çox alınan və həyati əhəmiyyət kəsb edən dərmanların ilkin tənzimlənmə siyahısı müəyyən olunub". Bunu APA-ya açıqlamasında İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev bildirib.**

A.Əliyev deyib ki, hazırda müəyyən olunmuş dərmanların qiymətlərin təyin edilməsi prosesi gedir: "Birinci tənzimlənmə mərhələsi üçün sənədlər hazır olandan sonra yaxın vaxtlarda sənədlər Tarif Şurasına təqdim olunacaq".

Dərmanların qiymətlərinin mərhələlərlə müəyyənləşdirilməsinin davam edəcəyini qeyd edən A.Əliyevin sözlərinə görə, hazırda ümumilikdə dərman vasitələrinin istehsalçıları və ya onların müvəkkil etdiyi şəxslərdən bəyannamələrin qəbulu davam etdirilir.

Qeyd edək ki, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi məqsədilə Tarif (qiymət) Şurası tərəfindən 10 istinad ölkəsi müəyyənləşdirilib və iyunun 9-dan başlayaraq qiymət bəyannamələrinin və sənədlərin qəbulu başlayıb.

Prosedura əsasən, qiymət tənzimlənməsi məqsədi ilə təsdiq edilmiş bəyannamə formaları dərman vasitələrinin istehsalçıları və ya onların müvəkkil etdiyi şəxslər tərəfindən doldurularaq, müvafiq sənədlərlə birlikdə Tarif (qiymət) Şurasının katibliyinə təqdim olunmalıdır. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üçün sənədlərin qəbulu və araşdırılması Tarif (qiymət) Şurasının Katibliyi tərəfindən həyata keçirilir.

Sənədlərə baxılarkən dərman vasitəsinin orijinalı və generikləri ilə bağlı Səhiyyə Nazirliyindən məlumat alınır. Qiymət bəyannamələri və tələb olunan sənədlər baxıldıqdan sonra dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üçün Tarif (qiymət) Şurasının iclasının gündəliyinə daxil edilir. Ölkəmizdə dövlət qeydiyyatına alınmış 4,5 mindən çox dərman vasitəsi var.

**Qiymətlər təsdiqləndikcə, qiymətlər cədvəli və qiymətlərin qüvvəyə minmə tarixi barədə məlumatlar KİV-də veriləcək, İqtisadiyyat və Sənaye Nazirliyinin (www.economy.gov.az), Tarif (qiymət) Şurasının rəsmi internet saytında (www.tariff.gov.az) yerləşdiriləcək və Səhiyyə Nazirliyi tərəfindən təqdim edilən dərman vasitələri haqqında elektron məlumatlarda (www.pharma.az) əks olunacaq.**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "ABŞ səfirliyi Azərbaycanda çevriliş hazırlamır"

**"ABŞ-ın səfirliyi Azərbaycanda çevriliş hazırlamır. Səfirlik ölkədə nə hər hansısa partiyanı təlimatlandırır nə də partiyaları maliyyələşdirir. Bu sırada olan istənilən şayiələr ABŞ-ın Azərbaycanın sabitliyinə, firavanlığına və müstəqilliyinə illər boyu verdiyi mühüm dəstəyə və əməkdaşlığa qarşı ədalətsizlikdir". Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyinin "ABŞ səfirliyinin bəyanatı media şayiələrini ifşa edir" başlıqlı bəyanatında deyilir.**



Nəzərə çatdıraq ki, son zamanlar bir sıra media orqanlarında ABŞ səfirinin müxalifət liderləri ilə görüşlərində dövlət çevrilişi, müxalifətin maliyyələşdirilməsi və təlimatlandırılması ilə bağlı söhbətlər aparması barədə məlumatlar yer edib.

Səfirliyin bəyanatında qeyd edilir ki, səfir Sekuta Yeni Azərbaycan, Müsavat və Xalq Cəbhəsi partiyaları da daxil olmaqla, müxtəlif siyasi partiyalar nümayəndələri ilə görüşərək onların fikirlərini dinləyib: "Sözügedən görüşlər Səfirin Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin təmsilçiləri ilə görüşmək və onların fikirləri ilə tanış olmaq niyyətinin bir hissəsidir və bu görüşlər barədə məlumat ictimaiyyətə öncədən çatdırılmışdır. Səfir həmçinin Azərbaycan hökumətinin yüksək rütbəli təmsilçiləriləridə görüşlər keçirir".

## Türkiyədə "divan düyünü" açıldı

**Türkiyə Böyük Millət Məclisi (TBMM) başqanlıq divanı 18 kişidən ibarət olacaq. MHP və HDP divanda hər biri 3 nəfər olmaqla təmsil olunacaq. Çoxdan gözlənilən uzlaşma 8 iyulda baş tutub.**

AK Partiyası, CHP və HDP TBMM başqanlıq divanının 18 nəfərdən təşkil olunmasında ortaq məxrəcə gəldi. Son nəticədə AK Partiyası 8, CHP 4 və MHP ilə HDP isə 3 nəfər olmaq şərtilə divanda təmsil olunacaq.

Daha öncə AK Partiyası, CHP və HDP divan üzvləri sayının 18 olması ilə bağlı razılaşmışdı. Buna görə divanda 8 AK Partiyası, 4 CHP, 3 MHP və HDP-li üzv olurdu. MHP isə divan üzvləri sayının 15-də qalmasını istəmişdi. MHP seçkilərdə HDP-nin yüzdə 13, özlərinin isə yüzdə səs aldıqlarını xatırladaraq divanda daha çox üzvlə təmsil olunmalarını istəmişdi.

**Bu arada Türkiyə siyasi gündəmində baş nazir yardımçısı və hökumət sözçüsü Bülent Arınçla MHP üzvü Yusuf Halaçoğlu arasındakı söz atışması da müzakirə olunur. Sonuncunun Dəniz Baykal və CHP ilə bağlı sözlərinə sərt təpki göstərən Arınc "Allah ağlınıza zərər verməsin. Heç bir AK Partiya üzvünün ağlından belə bir cümlə keçməz" deyib:** "Hökumət qurma məsələsində istəkliyik. Biz uşağın anasıyıq, bu ölkəni də hökumətsiz qoymaq istəmirik. Bunu tənqid edənlərə isə konstitusiyanı oxumağı məsləhət görürük. AK Partiyanın payına nə düşüb, onu görmələrini istəyirik. Məsələn, parlamentdə çox çirkin bir şey yaşandı. CHP-dən olan bir millət vəkili "Allah bəlanızı versin" deyə sözlərdən istifadə etdi. Bunun məsuliyyəti məclis rəhbərliyi və ya AK partiyası hökuməti deyil. Bu günə qədər işlər rahat idi. Amma millətin təqdiri heç kimi təkbaşına iqtidar etməyib. Millətimiz bizə bir vəzifə verdi, biz də onun arxasındayıq. Bizim qırmızı xətlərimiz yox, prinsiplərimiz var. Biz qura bilməsək, başqaları qurmağa çalışsın. O da olmasa seçkilərə gedərik".

❑ SEVİNC



## Bakıda daha bir avtobus qəzası

**İyulun 8-də saat 15 radələrində Bakının Sabunçu rayonu ərazisində - dəmiryolu vağzalının yaxınlığında 168 saylı marşrut üzrə işləyən 10 TC 441 dövlət qeydiyyat nişanlı avtobus qəza törədib. Avtobus hərəkətdə olarkən idarəetməni itirərək yoldan çıxıb və dirəyə dəyib. Hadisə şahidlərinin dediyinə görə, bir neçə nəfər xəsarət alıb.**

❑ M.MAHRIZLI

## Kim Çendən daha bir edam - Tısbağaya görə

**Şimalı Koreya lideri Kim Çen edamları ilə yenidən gündəmə gəlib. "Qafqazinfo" xarici KİV-ə istinadən xəbər verir ki, lider may ayında Pyongyangdakı Taedong çayının sahilində yerləşən fermanı ziyarət edib.**

Ziyarət zamanı göldə xeyli sayda tısbağa balalarının öldüyünü görüb. Buna hiddətlənən lider ferma sahibini cəzalandırmaq qərarına gəlib.

Kim Çen sahibin edam olunması barədə göstəriş verib.

Şimali Koreyanın Daily NK xəbər portalı edamın gerçəkləşdiyi barədə məlumat yayıb.

Xəbər portalı onu da qeyd edib ki, Şimali Koreyada quraqlıq hökm sürür. Bu səbəbdən fermada olan göllər qurumağa başlayıb, tısbağalar kütləvi şəkildə ölüb.

Xatırladaq ki, Koreyada olan bu cins tısbağalar şorba yeməklərində qida kimi istifadə olunur.

## "Araz" radiosu "Sputnik-Azərbaycan" ilə əməkdaşlığa dair bəyanat yayıb

**"Araz" radiosu lSputnik-Azərbaycan» xəbər agentliyi ilə əməkdaşlığa dair rəsmi bəyanat yayıb. APA-nın məlumatına görə, bəyanatda deyilir: "Son vaxtlar bəzi KİV-lərdə «Araz» radiosunun «Sputnik-Azərbaycan» xəbər agentliyi ilə əməkdaşlığına dair radiomuzun reputasiyasına zərbə vuran xəbərlərin yayılmasını nəzərə alaraq bəyan edirik ki, bütün yazılanlar həqiqətə uyğun deyil və tərəfdaşlıq prinsipləri ilə bir araya sığmır.**

«Araz» radiosu «Novosti-Azərbaycan» agentliyinin təsisçisi olduğu «Sputnik-Azərbaycan»la gündəlik xəbərlərin hazırlanmasında əməkdaşlıq edir. Bu əməkdaşlıq ölkənin bir çox xəbər agentlikləri ilə də mövcuddur. Münasibətlərimiz xəbərlərin hazırlanmasında eksklüziv materiallarda «Sputnik-Azərbaycan»a istinadla kifayətlənir.

Bəzi saytlar qarşı tərəfin mövqeyini öyrənmədən Azərbaycanda yeni radio yaradılması kimi qeyri-qanuni və jurnalist etikası ilə bir araya sığmayan dezinformasiyaları tirajlayıblar. Biz bundan təəssüf hissi keçirir və həmkarlarımızı peşə prinsiplərinə riayət etməyə çağırırıq".

## Azərbaycanda altı özəl tibb müəssisəsinin fəaliyyəti dayandırıldı

**Azərbaycan Səhiyyə Nazirliyi özəl tibb müəssisələrində yoxlamalar aparıb. APA-nın nazirliyin saytına istinadən verdiyi məlumata görə, özəl tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması və qanunsuz tibbi xidmətlərin göstərilməsinin vaxtında qarşısının alınması istiqamətində keçirilən yoxlamalar zamanı bəzi özəl tibb müəssisələrində qanun pozuntuları aşkar olunub və bir sıra sahibkarlıq subyektləri barəsində inzibati-məcburedici tədbirlər görülüb.**

Bu ilin birinci yarım illiyində aparılmış yoxlamalar nəticəsində altı özəl tibb müəssisəsinin - "VİP Dental" MMC, "Loğman Klinikası" MMC, "İnvitro" MMC, "Starmed" MMC, "Faiq-96" Müəssisəsi, "Nihat Klinikası" MMC-nin fəaliyyəti müəyyən olunmuş tarixədək dayandırılıb.

Üç özəl tibb müəssisəsinə - "Zaman Tibb Mərkəzi" MMC, "Assmed" MMC, "Medservis" verilmiş xüsusi razılığın (lisenziyanın) əlavəsindən stasionar xidmət tam çıxarılaraq yalnız poliklinik xidmət saxlanılıb.

**Lisenziya olmadan və ya lisenziyadan kənar fəaliyyət göstərdiklərinə görə 28 özəl tibb müəssisələri və tibbi xidmət göstərən fiziki şəxslər barəsində cərimə tətbiq edilib.**

## Abşeronun bir sıra çimərliklərində çimmək qadağan olunub

**FHN Şüvəlan qəsəbəsində çimərlikdə çimməyi qadağan etdiyini elan edib. Bununla əlaqədar olaraq, çimərlikdə mühafizə məntəqəsi qurulub, məntəqə əməkdaşları çimərliyə getmək istəyənləri buraxmır. Qadağa suyun çirklənməsi ilə əlaqədardır. Həmin sularda çimmək insan sağlamlığında problemlərə və infeksiyaların yayılmasına səbəb ola bilər.**

Bir müddət əvvəl "Şıxov" və "Sahil" çimərliklərində də eyni səbəblərdən qadağa tətbiq edilib. Çimərliklərin çirklənməsinə səbəb çirkab sular, təmizlənməmiş müəssisə tullantılarının dənizə atılması və neft məhsullarının həcminin çox olmasıdır.

## Avropa İttifaqı Ukraynaya 600 milyon avro yardım ayırıb

**Avropa İttifaqı (Aİ) makromaliyyə yardım proqramı çərçivəsində Ukraynaya 600 milyon ayırıb.**

APA-nın xəbərə görə, bu barədə Avropa Komissiyasının məlumatında bildirilir.

Məlumatda qeyd olunub ki, bu, 2015-ci il üçün Aİ tərəfindən göstərilən yardımın ilk tranşdır. Bu il üçün ümumi yardımın məbləği isə 1,8 milyard avro təşkil edir. Yardım ölkədə iqtisadiyyatın stabilləşdirilməsi, maliyyə sisteminin şəffaflaşdırması və dövlət idarəçiliyinin təkmilləşdirilməsinə dair lazımi islahatların keçirilməsi üçün ayrılır.

**Ukrayna həmçinin Beynəlxalq Valyuta Fondundan (BVF) da maliyyə dəstəyi alır.**

YENİ MÜSAVAT
N 148 (6176) 9 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Əli Kərimlinin müavininin qəfil istefasının sensasion səbəbləri...

## Əbülfəz Qurbanlının ikinci dəfə istefasına səbəb nədir? versiyalar çoxdur; sabiq şöbə müdirinin müsahibəsi gənc müavinin getməsinə səbəb ola bilərmi?; Qurumda qarşıdakı günlərdə də istefalar gözlənilir

**AXCP sədrinin müavini Əbülfəz Qurbanlı partiyadan istefa verib. Bununla bağlı o, sosial şəbəkələrdə status paylaşıb. Statusda o, bacardıqlarını gerçəkləşdirməyə olan maneələrə eyham vuraraq, istefa verdiyini qeyd edib. İstefa statusunu olduğu kimi təqdim edirik: “Dostlar, dərin bağlı olduğum AXCP-dən istefa verirəm. Düz yolda olmuşam, dəyərlər uğrunda savaşmışam, bundan sonra da düz bildiyim yolda olacam. Var gücümlə sıralarımızın genişlənməsi, gənclərin AXCP-də təşkilatlanması, genişlənməsi - ali məqsəd üçün çalışmışam.**

**İndi isə istefa verirəm, çünki bacardıqlarımı gerçəkləşdirməyə əngəllər var. Bundan sonra davam edənlərə uğur arzu edirəm. Bu addımımdan məyus olanlar, ümid verdiyim hər kəs, gənc dostlarım, məhbəsdəki dostlarım-haqqı üçün savaşdığım xalqımız məni bağışlasın”.**

Əbülfəz Qurbanlı qəzetimizə müsahibə vermədiyindən mövqeyini öyrənə bilmədik. Əvvəl düşündük ki, onun profilini oğurlayıblar. Çünki indiyə qədər dəfələrlə AXCP daxilindən sosial şəbəkələrdə istefa statusları paylaşılıb, lakin sonradan profilin oğurlanması ya bəhanə, ya da əsas gətirilib. Lakin Ə.Qurbanlının istefası əvvəlkilərdən tamam fərqli olub. Belə ki, adının açıqlanmasını istəməyən AXCP rəsmilərindən biri faktı təsdiqləyib.

Əbülfəz Qurbanlı özü də AXCP-dən istefa verməsi ilə bağlı xəbərə münasibət bildirib.

O, AzNews.az-a açıqlamasında profilinin sındırılmadığını, statusunu özünün yazdığını və AXCP-dən istefa verdiyini təsdiqləyib: “Hər şeyi orada yazmışam. Əlavə məlumata ehtiyac duymuram. Xahiş edirəm məni narahat etməyin”.

Azvizion.az saytı da yazır ki, Ə.Qurbanlı istefa verdiyini onlara təsdiqləyib, amma səbəbləri barədə danışmaq istəmədiyini söyləyib.

AXCP rəhbərliyindən isə, bu yazı çapa gedənə qədər heç kim faktla bağlı izahat verməyib.

Ə.Qurbanlının istefası ilə bağlı artıq bəzi versiyalar səsləndirilir. Onun partiyadaxilində demokratiyanın olmamasına görə istefa verdiyi deyilir. Eyni statusa malik olan digər müavinlərdən fərqli olaraq, Ə.Qurbanlının imkanlarının sıfıra endirildiyi, hətta onun görməli olduğu işləri də başqa müavinlərə tapşırıldığı deyilir. Məhz bu amillərə görə sonda onun istefa verdiyi ehtimal edilir.

Redaksiyamıza AXCP daxilindən yaşananlarla bağlı məlumat verən mənbənin fikirləri daha inandırıcı göründü. Mənbə istefa ilə bağlı onu dedi ki, Əbülfəz Qurbanlı əslində qalsa çoxdan istefa verməli idi. Çünki o, müavinlik səviyyəsində perspektivinin olmadığına əmin imiş. Dəfələrlə onun partiya daxilində işləməsinə imkan verilməməsinə görə gileyləndiyi, narazılıq etdiyini də mənbə qeyd etdi.



Əbülfəz Qurbanlı

Yayılan xəbərlərdən biri də partiya rəhbərliyinin gənc müavinə olan inamsızlığı ilə bağlıdır. İndiyə qədər Ə.Qurbanlının rayon şöbələrində iclaslar keçirməyə, iştirak etməyə qısqanclıqla yanaşılıb. Sonda o, emosionallıq göstərib. Əsas narazılığı olan şəxslərin Həsən Kərimov və Gözəl Bayramlı olduğu bildirilir. Çünki hazırda AXCP daxilində demək olar ki, bütün səlahiyyətlər bu iki şəxsin əlində cəmləşib. Məhz bu amilə görə yaxın günlərdə rəhbərlik səviyyəsində bir sıra şəxslərin istefa verəcəyi gözlənilir.

AXCP sədrinin müavininin istefasına səbəb olan daha bir versiya var. Bu partiyadan çıxarılan sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlunun “Yeni Müsavat”a bazar ertəsi verdiyi müsahibədə səsləndirdiyi anonslardır. Sabiq şöbə müdiri anonsların birində AXCP Rəyasət Heyətinin iki üzvünün Əli Kərimli və Razi Nurullayev arasında oyun oynadıqlarını, müəyyən dairələrlə əlaqələrinin olduğunu bildirmişdi. Həmin iki şəxsdən birinin Ə.Qurbanlı olduğu ehtimal edilir.

Fərqli bir iddia da ondan ibarətdir ki, gənc müavin hansısa video-görüntülərlə şantaj olunub.

Qeyd edək ki, bu, Əbülfəz Qurbanlının ilk istefası deyil. İki il öncə də o partiyadan açıq şəkildə istefa verdiyini bəyan etmiş, lakin rəhbərlik səviyyəsində geri qaytarılmışdı. Amma bu istefa heç də ona bənzəmir. Çünki artıq o, xəbəri təsdiqləyib.

Onu da xatırladaq ki, artıq bu, Əli Kərimlini qəfil şəkildə tərk edən üçüncü müavindir. Bundan əvvəl Fuad Mustafayev, daha sonra isə Asəf Quliyev bu addımı atmışdı. Böhran keçirən təşkilat Əli Kərimlinin başqa bir müavinini - Razi Nurullayevi tutduğu vəzifəsindən azad etmişdi.

**Onu da xatırlatmaq kifayətdir ki, yaxın günlərdə qurumun Rəyasət Heyətinin daha bir üzvünün istefa verəcəyi gözlənilir. Həmin şəxsin Ağaşirin Tanrıverdioğlunun “Yeni Müsavat”dakı müsahibəsində ifşa edəcəyi ilə bağlı anons verdiyi şəxslərdən biri olduğu güman edilir. Bundan əlavə, sıravi üzvlər səviyyəsində də istefalar qaçılmazdır. Göründüyü kimi, kənardan daxilində sabitlik görüntüsü verən AXCP heç də yaxşı günlərini yaşamır. Qurumun bu vəziyyətdən necə çıxacaq yaxud çıxa bilməyəcək zaman göstərəcək. Belə davam edərsə, Əli Kərimlinin qarşıdakı qurultaya yalnız öz ətrafı ilə gedəcəyi istisna olunmur.**

❑ **Cavanşir ABBASLI**

# Hacı Məmmədov ailəsi ilə görüşməkdən imtina edib

## O, “Vokruq sveta” jurnalını oxuyur, “boevik” filmlərə baxır, muncuqla nələrsə düzəldir...

**10 il əvvəl Azərbaycanda adam oğurluğu və sifarişli qətllər törədən mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirildi. 2005-ci ilin martında Milli Təhlükəsizlik Nazirliyinin həyata keçirdiyi “Qara Kəmər” əməliyyatı polis zabiti Hacı Məmmədovun rəhbərlik etdiyi dəstə üzvlərinin yaxalanması ilə sonuclandı. Sonradan dəstə üzvləri Ağır Cinayətlərə Dair İşlər Üzrə məhkəmənin hökmü ilə ömürlük və uzun müddətli həbsxana həyatına məhkum edildilər.**

Hacı Məmmədov istisna olmaqla əsas dəstə üzvləri Qobustan Qapalı Həbsxanasına köçürüldülər. Dəstə başçısı Hacı Məmmədov isə ömürlük cəza alsa da, MTN-in istintaq təcridxanasında qaldı. Onu Qobustana köçürmədilər. Köçürülməmənin H.Məmmədovun şəxsi istəyinə uyğun olması haqda məlumat var. Banda başçısı Qobustan həbsxanasında onunla haqq-hesab çəkmək istəyənlərin olacağından ehtiyat edir. Bu ehtiyatlılıq əbəs deyil - onun göstərişi ilə bandasının imza atdığı cinayətlər sırasında xeyli xüsusilə ağır cinayətlər var. Qadın oğurlayıblar, oğurladıqları adamın qulağını kəsiblər!

1951-ci il təvəllüdlü Hacı Məmmədov bu gün də MTN-də saxlanılır. Ara-sıra onun varlığı haqda İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudovun MTN istintaq təcridxanasında apardığı monitorinqlərin nəticəsi haqda açıqlamalarından bəlli olur. E.Behbudovun sonuncu belə səfəri bir neçə gün əvvəl olub. E.Behbudov deyib ki, Hacı Məmmədov şəkərdən əziyyət çəkir, özünü təbii üsullarla müalicə edir.



E.Behbudov əvvəkli açıqlamalarında demişdi ki, Hacı Məmmədov həmişəki kimi bir nəfərlik kamerada saxlanılır: “Öz istəyi ilə heç kimlə görüşmür. O, bunu yaddan çıxmaq və unudulmaq məqsədi ilə edir. Evdən gələn azuqələri qəbul edir. Qanunvericiliyə görə o tipli məhkumlara nəzərdə tutulan qaydalar ona da şamil olunur. Hacı Məmmədovun kamerasında televizor var. O, şəkər xəstəliyindən əziyyət çəkir. Buna görə də MTN-nin istintaq təcridxanasının həkiminin birbaşa nəzarəti altındadır. Evdən göndərilən dərmanlar və türkəçarə üsullarla müalicə olunur. Hacı Məmmədov yağlı boya ilə şəkillər çəkir, muncuqla müxtəlif əl işləri düzəldir. Hətta o, yağlı boyalarla çəkdiyi şəkillərin beşini mənə hədiyyə edib. Onun çəkdiyi rəsm əsərlərinin hamısı şifrəlidir. O, şifrələrin anlamını heç mənə də açmır”.

Bu yazını hazırlayarkən H.Məmmədovun yaxınları də əlaqə saxladıq. Onlar da deyir ki, H.Məmmədovla 3 ildir ki, görüşə bilmirlər: “Biz görüşə gedirik, deyirlər ki, Hacı sizinlə görüşmək istəmir. Hətta çox istədiyi oğlunu, qızını belə görmək istəmir”.

Yaxınları deyir ki, H.Məmmədov onlara məktub yazır. Amma məktubunda özü haqda heç nə bildirmir: “Apardığımız yemək-içməyi götürürlər. Özü məktub yazıb verir, orada bizim üçün qoyurlar. Məktubda ona nə lazım olduğunu qeyd edir. Nə istədiyini yazır. Alıb aparırıq”.

Maraqlıdır ki, H.Məmmədov özünü müalicə etmək üçün yaxınlarından hər hansı bir təbii vasitələr istəmir. Məsələn, müalicə üçün otlardan istifadə geniş yayılıb. Yaxınları deyirlər ki, H.Məmmədov onlardan belə vasitələr istəmir: “Ot-filan istəmir. Rəsm çəkməyə boya, müxtəlif jurnallar, filmlər istəyir, alıb yollayırıq. ”Vokruq Sveta" oxuyur".

Yaxınlarının sözlərindən məlum olur ki, H.Məmmədov əsasən döyüş filmlərinə baxır: “Boevik” filmləri xoşlayır. Muncuqla nələrsə düzəldir. Onun əvvəldən belə işlərə həvəsi olub. Dizaynerliyi də xoşlayırdı".

Beləcə 10 ildir ki, Hacı Məmmədov yaşayır, 10 illərlə törətdiyi cinayətlərin cəzasını çəkir. Hərçənd ki, bu yaşayışı ona çox bilənlər də az deyil. Bu isə başqa bir yazının mövzusudur...

Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə adam oğurluğu və bir sıra qətllərdə təqsirləndirilən Daxili İşlər Nazirliyi Baş Cinayət Axtarış İdarəsinin keçmiş baş əməliyyat müvəkkili Hacı Məmmədov və digər 26 nəfər barədə hökmü 2007-ci il yanvarın 19-da çıxarıb.

**Məhkəmənin qərarına əsasən, Hacı Məmmədov, keçmiş şöbə müdiri Kamil Sədrəddinov, nazirliyin Baş Cinayət Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirov və digər 7 nəfər ömürlük həbs cəzasına məhkum ediliblər.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 148 (6176) 9 iyul 2015



# “Seçim anıdır, bunu etmişəm, geriyə yol yoxdur”

## Rauf Arifoğlu: “49 yaşı müsavatçı kimi tamamlayım, sonra ərizəni göndərəcəyəm”

**“Dünyada qəbul olunan bir norma var ki, jurnalistlər konkret partiya üzvü olmurlar. Buna görə də çoxdan, neçə illər öncə verdiyim bir qərarı həyata keçirəcəyəm”. Bunu APA-ya açıqlamasında “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu deyib. R.Arifoğlu bildirib ki, partiyadan getmək barədə qərarı çoxdan qəbul edib və onun həyata keçirilməsi zaman məsələsidir: “Hələ qurultaydan öncə başqan namizədlərinin, demək olar ki, hamısına elan etmişdim ki, qurultaydan sonra partiya üzvlüyündən gedəcəyəm. Bir neçə ay öncə bu qərarı icra edəcəkdim, indiki başqanın xahişi ilə təxirə saldım.**

Artıq Müsavat Partiyasında vəziyyət stabilləşib, hər şey başqanın kontrolundadır, bütün strukturlar işləyir. Hesab edirəm ki, cəmiyyəti alışdıra-alışdıra mənim də Müsavat Partiyasından getməyimin zamanı gəlib. Uzun müddətdir Müsavatın opponentləri mənim qəzetçi kimi sərbəst fəaliyyətimi təşkilata qarşı şantaja çeviriblər. Bəzi partiya üzvləri də belə durumdan rahatsız olurlar və mənə qarşı əsassız ittihamlara yol verirlər”.

**R.Arifoğlu qeyd edib ki, jurnalistika özü bir dünya partiyasıdır və onun öz qızıl prinsipləri var, bu prinsiplər partiyalılıq prinsipləri ilə ziddiyyət, özü də tam diametral ziddiyyət təşkil edir:** “Biri hər şeyi açıq tutmağı, gündəmə çıxartmağı, digəri isə gizlətməyi, qapalılığı tərcih edib. Bunların ikisi bir yerdə əslində mümkün deyil. Əminəm ki, Azərbaycanda da bu proses mütləq getməlidir və jurnalistlər "öz" partiyalarına - məsləklərinə aid olmalıdırlar. Onların partiya nizamnaməsinə tabe olması nonsensdir, söz azadlığı prinsiplərinə ziddir. Çünki partiya üzvü olan jurnalist bir sıra azadlıqları ilə yanaşı, söz azadlığının verdiyi imkanlardan da könüllü olaraq imtina edir, onu məhdudlaşdırır, buna məcbur qalır. Siyasi liderin yanında sirr tutan jurnalist artıq jurnalist deyil, o, peşəsinə xəyanət edir".

**R.Arifoğlu əlavə edib ki, partiyadan getmək kimi strateji və həyati qərarının başqa özəl səbəbləri də var:** “Bütün səbəbləri partiyadan istefa verəcəyim gün yazacağım məqalədə göstərəcəyəm. Amma bunun Müsavat Partiyasının perspektivi, indiki rəhbərliyinin mənə münasibəti ilə əlaqəsi yoxdur. Hesab edirəm ki, Müsavat Partiyası Azərbaycanın keçmişi, bu günü və sabahında mühüm rol oynayan-oynayacaq təşkilatdır. Lakin mənim həyatımda əsas rolu 26 il öncə yaratdığım qəzet oynayır. Seçim anıdır, bunu etmişəm, geriyə yol yoxdur. Bundan sonra da müstəqil şəxs kimi ictimai-siyasi fəaliyyət göstərəcəyəm. Məsələn, təsisçilərindən biri olduğum Milli Strateji Düşüncə Mərkəzində fəaliyyətimi davam etdirəcəyəm. Mənə də, Müsavata da bu cür daha rahat olacaq”.

**R.Arifoğlu onu da deyib ki, rəsmi istefa ərizəsini Müsavat rəhbərliyinə doğum günündən sonra yollayacaq:** “49 yaşı müsavatçı kimi tamamlayım, sonra ərizəni göndərəcəyəm. Bundan sonra da həyatımın 26 ilini sərf etdiyim bir layihə ilə - Müsavatla mənəvi bağlılığım təbii ki, qalacaq. Lakin mənim üzərimdə heç bir öhdəlik, heç bir məsuliyyət olmayacaq. Təşkilata informasiya dəstəyini isə davam etdirəcəyəm. Ancaq Müsavatın yeni rəhbərliyi istəməsə, bunu məcburi edəsi deyiləm”.

**“Yeni Müsavat”da çalışan digər müsavatçı jurnalistlərin qərarı ilə bağlı suala R.Arifoğlu belə cavab verib:** “Özləri bilərlər. Mən bir neçə ay öncə onlara ”qalın” deyə xahiş etdim. Çünki təşkilatda vəziyyət fərqli idi. İndi kimsəyə “gedin” deməyəcəyəm. Hər kəs özü qərar verəcək".

# Ziya Məmmədov “qara zolaqda”: “ölkədən çıxa da bilmir...”

## Avropa Oyunlarında rəhbərlik etdiyi federasiyanın medalsız qalması, məlum qəza və qardaşının villasındakı məşum qətl nəqliyyat nazirinə ardıcıl zərbələr vurub; yol tikintisinə ayrılan pullardan da kənarda qalan Z.Məmmədov yaxınlarından şikayətçidir...

**Nəqliyyat naziri Ziya Məmmədovun hakimiyyətdəki mövqelərinin tam itirməsi prosesi başlayıb. Avropa Oyunlarının yekununda Nəqliyyat Nazirliyinin diqqətdən kənarda qalması, nazirə heç adi bir tərifnamə belə verilməməsi hər kəsin nəzərini cəlb etdi. Z. Məmmədovun uzun illərdi rəhbərlik etdiyi Voleybol Federasiyasının - voleybol millimizin də medaldan kənarda qalması nəqliyyat nazirinin “minus”ları sırasına yazıldı.**

Qeyd edək ki, bu fiaskodan sonra qızlardan ibarət milli komandanın rəhbərliyi istefaya göndərildi. Xəbərlərə görə, 2013-cü ildə yenidən federasiya prezidenti seçilmiş Z. Məmmədovun bu postundan gedəcəyi də gözlənilir. Həm ölkədə, həm də xaricdə ən yaxşı təlim bazalarında məşq edən milli komandanın xərclənən vəsaitlərə rəğmən əvvəl yarımfinalda, sonra isə üçüncü yer uğrunda oyunda da uduzması federasiya rəhbərinin “fəaliyyətini” üzə çıxardı.

Avropa Oyunları zamanı “Atletlər kəndi”ndə baş vermiş avtobus qəzasında avstriyalı idmançıların ağır xəsarət alması da Z.Məmmədova daha bir ciddi problem yaratdı. Avropa Oyunları zamanı baş vermiş yeganə qəza (əslində isə terror!) hadisəsi hakimiyyəti Z. Məmmədovdan ciddi narazı saldı və bu işlə bağlı istintaq hələ də davam edir. Nəqliyyat nazirinin qardaşı Loğman Məmmədovun oğlu, “Transqeyt” MMC-nin rəhbəri Rövşən Məmmədov bu işin istintaqı ilə bağlı bir neçə dəfə dindirilib. İstintaq belə güman edir ki, “Atletlər kəndi”ndəki hadisə qəzadan çox, sui-qəsdə oxşayır və səbəbdən də araşdırma daha əhatəli gedir. İddialara görə, bu qəza ilə bağlı nazir şəxsən prezidentin yanında olub və izahat verib. Prezidentin naziri bu işə görə möhkəm tənbeh etdiyi də deyilir.



Xəbəri redaksiyamıza verən mənbə prezidentin son günlər yol tikintisi ilə bağlı verdiyi sərəncamlarda vəsaitin birbaşa Nəqliyyat Nazirliyinə deyil, həmin rayonların icra hakimiyyətlərinə ayrıldığına diqqət çəkib. Hətta Z.Məmmədovun kuratorluq etdiyi Qubanın yollarına da ayrılmış 8 milyon manat Nəqliyyat Nazirliyinə deyil, icra hakimiyyətinin sərəncamına verilib. Yeri gəlmişkən, “Azəryolservis” ASC-dən “Dövlət Dəmir Yolları” QSC-nin rəhbəri gətirilmiş Cavid Qurbanov ötən həftə keçirdiyi kollegiya iclasında bir neçə idarə və stansiya rəhbərini işdə yol verdiyi ciddi nöqsanlara görə tutduğu vəzifədən azad edib. Məlumatda deyilir ki, işdən çıxarılanlar Z. Məmmədovun kadrlarıdır və illərdir ki, onlara kimsə “gözün üstə qaşın var” deyə bilmirmiş...

Z. Məmmədovun qardaşının Qusardakı villasında baş vermiş qətl də naziri mövqelərinə ciddi zərbə olub. Nazirin “məni düşmənlərim yox, yaxın adamlarım yıxacaq” deyib şikayətləndiyi barədə də iddialar var. İyunun 30-da Qusar rayonunun Çiləgir kəndində nəqliyyat nazirinin qardaşı Nəriman Məmmədovun villasında baş vermiş qətlin namus üstə törədilməsi Məmmədovların adına yazılmış daha bir “minusdur”. Rayonda danışılanlara görə, səhvən nazirin qardaşını deyil, onun qudasını öldürən qatil Eynulla Hacıyev iddia edildiyi kimi, içki düşkünü olmayıb. Azpolitika.info saytı da yazır ki, rayon camaatı Eynulla Hacıyevin bu hadisəni N.Məmmədovun bacısı ilə olan münasibətinə görə deyil, arvadı ilə yaxınlığını aşkarladığı üçün törətdiyini bildirirlər.

Qeyd edilir ki, nazirin qardaşının Eynulla Hacıyevin arvadı ilə münasibətinin olduğuna dair söz-söhbət kənddə xeyli vaxt imiş ki, yayılıbmış. Eynulla Hacıyev bunu eşidib, onları izləməyə başlayıb. Hadisə baş verən gün Nəriman Məmmədov Eynulla Hacıyevin arvadı ilə bir yerdə olub. Eynulla Hacıyev evə girərək birinci Nəriman Məmmədovu vurub, sonra arvadını vurmaq istəyib, lakin güllə hədəfə dəyməyib. Ehtimal edilir ki, Eynulla Hacıyev arvadını vurmaq üçün onun arxasınca çıxdıqda N.Məmmədovun qudası Ramiz Vəliyevlə qarşılaşıb. Qəzəblənmiş Hacıyev bu məsələdə heç bir günahı olmayan Ramiz Vəliyevi də qətlə yetirib. Ancaq onun arvadını öldürmək cəhdi baş tutmayıb. O, fürsətdən istifadə edərək aradan çıxa bilib. Eynulla Hacıyevin məhz arvadını öldürmək üçün gizləndiyi, buna görə də dərhal polisə təslim olmadığı iddia edilir. Ancaq polis onu bacısının evində taparaq həbs edib.

Qusarda danışırlar ki, Nəriman Məmmədov ağır güllə yarası aldığı üçün Türkiyəyə aparılıb. Onun şok keçirərək dilinin tutulduğuna dair məlumatların isə qəsdən yayıldığı, hadisənin əsl mahiyyətini, motivini gizlətməyə xidmət etdiyi iddia olunur.

Xəbərlərdə o da deyilir ki, nazir Avropa Oyunları səbəbindən ertələdiyi yay məzuniyyətinə də çıxa bilməyib. Bəlkə nazirlikdə təhvil-təslim başlayıb?

❑ **“Yeni Müsavat”**

***P.S.*** *Nəqliyyat Nazirliyində Z.Məmmədovun hazırda harada olması barədə sualımıza cavab ala bilmədik.*

# SOCAR dövlət büdcəsinə ödənişləri azaltdı

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin(SOCAR) dövlət büdcəsinə ödənişləri 2015-ci ilin iyun ayında 132 milyon 96 min manatdan (may ayının göstəricisi) 123 milyon 688 min manata düşüb.**

SOCAR-ın rəsmi saytında verilən məlumata görə, ümumiyyətlə, 2015-ci ilin yanvar-iyun aylarında büdcəyə 728 milyon 730 min manat vəsait ödənilib.

Bundan əlavə, cari ilin iyun ayında SOCAR Dövlət Sosial Müdafiə Fonduna 11 milyon 942 min manat vəsait köçürüb.

Bu göstərici 2014-cü ilin iyun ayı ilə müqayisədə 143 min manat və ya 101,2% çox olub.

Ümumiyyətlə, 2015-ci ilin yanvar-iyun aylarında Şirkət tərəfindən Dövlət Sosial Müdafiə Fonduna ödəniş 69 milyon 784 min manat təşkil edib.

# Seçki ilində yaranıb seçki ilində “qürub edən” proje

**2013-cü il prezident seçkiləri ərəfəsində yaradılan və “Milyarderlər İttifaqı” kimi tanınan sirli-müəmmalı Ümumrusiya Azərbaycan Təşkilatları İttifaqı (RATİ) buraxıldı. Xəbər verildiyi kimi, dünən qurumun təsisçiləri təşkilatın rəsmən qapadılmasına dair qərar qəbul ediblər. Bu barədə ittifaqın sədri, Azərbaycan baş nazirinin keçmiş 1-ci müavini Abbas Abbasov “AzerRos” portalına müsahibəsində bildirib.**



# “Milyarderlər İttifaqı”nın qəfil buraxılmasının şok səbəbi

## RATİ-nin mərkəzi fiquru Abbas Abbasovun hakimiyyətə son reveransının sirri; baş nazirin “İstiqlal” ordenli sabiq 1-ci müavini bununla özünü, deputat oğlunu və ətrafında mühasirəsi daralan digər yaxınlarını qurtara biləcəkmi? **Söyün Sadıqov:** “O, Vətən xaini və satqındır, ondan istənilən alçaqlığı gözləmək olar...”

**Sitat:** “Bəli, belədir. RATİ-nin fəaliyyəti başlamağa imkan tapmadan dayandırıldı. Bunun səbəbi, o cümlədən bizim təşkilatı buraxmaq barədə qəbul etdiyimiz qərar bir sıra arqumentlər və mülahizələrlə şərtləndirilir”.

Hazırda “AzerRos” Rusiya Azərbaycanlıları Federal Milli Muxtariyyətinin parçalanmadan sonrakı qanadlarından birinə rəhbərlik edən Abbas Abbasov “Milyarderlər İttifaqı”nın 2013-cü ildə Rusiyada azərbaycanlı diaspor təşkilatları arasında “mərkəzdənqaçma proseslərini dayandırmaq üçün” təsis edildiyini söyləyib. Onun sözlərinə görə, Ümumrusiya Azərbaycanlılar Konqresinin və “Azərros”un əvvəlki rəhbərliyi arasında qəbuledilməz şəkildə çəkişmə gedirdi, diaspor parçalanmışdı.

“Kədərlə deyirəm ki, Ümumrusiya Azərbaycan Konqresinin 2011-ci ilin noyabrında keçirilən qurultayında təşkilatın nizamnaməsi dəyişdirilib, ancaq hələ də Rusiyanın ədliyyə orqanları onu qeydə almayıb. Bakıdan məsul əməkdaşın təyin edildiyi qəribə "baş katib" vəzifəsi meydana çıxıb. Hazırda bu vəzifə ləğv edilib, ora təyin edilən adam Bakıya geri qayıdıb, ancaq tör-töküntüləri qalıb" - deyə Abbas Abbasov qeyd edib.

**O, ad çəkmədən “AzerRos”un keçmiş rəhbəri Söyün Sadıqovu tənqid edib.** Onun digər diaspor təşkilatları və doğma vətəni ilə normal münasibətlər qura bilmədiyini, Azərbaycan rəhbərliyinin ünvanına “ağzına gələni danışdığını” deyib. Keçmiş 1-ci müavinin dediyinə görə, onlar “diasporun parçalanmasının qarşısını almaq üçün” bu təşkilatı yaradanda proqram sənədlərində Azərbaycanda prezident İlham Əliyevin başçılığı ilə həyata keçirilən islahatları dəstəkləmək, eyni zamanda Rusiya-Azərbaycan münasibətlərinin inkişafına xidmət etmək vəzifələrini qoymuşdular.

“Ancaq bizim ünvanımıza hansı ittihamlar səslənmədi? Belə razılaşdılar ki, bizi Azərbaycanda çevriliş törətmək üçün az qala Kreml toplayıb" - o deyib. Abbasovun fikrincə, bu hücumlar həm onların özünə, həm də bütövlükdə Rusiya ilə münasibətlərə ziyan vururmuş: “Ona görə də biz özümüz təşkilatın fəaliyyətini dayandırdıq. Ona görə yox ki, qorxduq, ona görə ki, vəziyyəti gərginləşdirmək istəmədik. İstəmədik ki, kimsə seçkilər ərəfəsində "bizim kartımızı" oynasın. Axı Azərbaycan mətbuatında bu antirusiya vakxanaliyası kimə lazım idi? Kimsə iki liderin, iki dövlət başçısının arasını pozmaq istəyirdi".

***

**Qeyd edək ki, “AzerRos”un hazırkı prezidenti Söyün Sadıqovun Abbasova cavabı özünü çox gözlətməyib (moderator.az).** O, sabiq 1-ci vitse-preymer haqda sərt ifadələr işlədib, onu satqın adlandırıb. **Sitat:** “Abbas Abbasov onun ətrafında yaranmış boşluğa görə bu addıma getməyə məcbur olub. İndi İttifaqın bağlanılması elanı ilə özünə əlavə dividentlər qazanmağa çalışır. RATİ demək olar, çoxdan yoxdur. Onun ətrafında bir zaman olan hörmətli azərbaycanlılar, o cümlədən İttifaqın təsisçiləri onun çirkin oyunlarını və prezidentin adı ilə spekulyativ hərəkətlərini başa düşərək, onu çoxdan tərk ediblər”.

**Söyüd Sadıqova görə, Abbasovun mənəvi haqqı yoxdur ki, prezidentin adını çəksin və vətənə sevgidən danışsın:** “Çünki o 17 yanvar, 14 aprel tarixlərində öz həmyerlilərinə - diasporun yüzlərlə fəalına, ağsaqqalına qarşı Rusiya hüquq-mühafizə orqanlarını qaldırıb, hətta etnik dağıstanlı quldurlarını azərbaycanlılara qarşı göndərməkdən belə çəkinməyib. Bundan sonra o, necə özünü Azərbaycanı sevən şəxs kimi qələmə verə bilər? O hakimiyyətə gəlmək üçün ermənilərlə separatist danışıqlarını deyəsən unudub. Amma bu məlum faktdır. Mənim üçün təəccüblüdür ki, Abbasov indi ÜAK-n mənafelərini qorumaq mövqeyindən danışır. Halbuki özü etiraf edirdi ki, ÜAK-ı o yaradıb və o da məhv edəcək. Onunla bir qayıqda olanlar da buna kömək edirdilər. O hazırda "AzerRos" ilə bağlı çirkin oyunlarından əl çəkməyərək, nəinki ÜAK, həm də bütün diasporda intriqa salır. Bu insanın bacarığı həmişə bundan ibarət olub. Amma inandırıram sizi, “AzerRos”u da onun əlindən alacağıq. Artıq Rusiyada vətənə bağlı Azərbaycan icması ona nifrət edir. Özünə hörmət edən azərbaycanlı bundan sonra onunla bir yerdə olmaz. Çünki belə insanlar alçaqdır və ondan istənilən alçaqlığı gözləmək olar. Prezidentini kağızda tərifləyən, amma hərəkətləri və danışıqları isə əksini göstərən insana nə cür inanmaq olar? Məni qeyri-adekvat insan adlandırır, amma ondan fərqli olaraq mən Vətən xaini və satqın deyiləm. O isə əsl satqındır".

***

**Bəs seçki ilində yaranıb seçki ilində də “qürub edən” bir qurumun - RATİ-nin ləğvinin gerçək motivi arxasında nə durur, niyə məhz bu günlərə təsadüf elədi hadisə?**

Əvvəla, Abbas Abbasovun açıqlaması onun “Milyarderlər İttifaqı”nın mərkəzi fiquru olduğunu bir daha təsdiqləyir. Əlbəttə ki, o, xeyli dərəcədə blef edir, “kartların” yerini məqsədli şəkildə dəyişir. Ondan başlayaq ki, Abbasov “Milyarderlər İttifaqı” yaradıldıqdan az sonra, prezident seçkiləri ərəfəsində Azərbaycan hakimiyyətinin hədəfinə gəlmişdi. Qurumu Kremlin məkrli layihəsi hesab edən hakimiyyət özünə yönəlik bu projedə Abbas Abbasovun da əsas rol almasını heç cür həzm edə bilmirdi.

Üstəlik, onun son prezident seçkisi ərəfəsində ad çəkməsə də, rəsmi Bakıya ünvanlı məlum sərt açıqlaması iqtidarı ona qarşı daha qəzəbli ovqata kökləmişdi. Lakin sonralar Abbas Abbasov dəfələrlə prezident İlham Əliyevə sadiq olduğunu bəyan etsə də, hakimiyyət onun səmimiliyinə inanmadı.

Azərbaycan vətəndaşı ola-ola Abbas Abbasovun paralel olaraq Rusiyadakı diaspor qurumlarının işinə mütəmadi müdaxilə eləməsindən, diaspor fəaliyyətinə əngəllər yaratmasından, habelə “AzerRos”u parçalamasından da Azərbaycan hakimiyyəti məmnun qala bilməzdi. İş o yerə çatdı ki, diasporun bir çox tanınmış siması onun destruktiv fəaliyyəti ilə bağlı Rusiya və Azərbaycan prezidentlərinə şikayət ünvanladılar.

Bütün bu fəaliyyətlər, “İstiqlal” ordenli Abbas Abbasovla hakimiyyət arasında körpülərin yanmasına gətirib çıxardı ki, bu da öz təsdiqini sonuncu dəfə Avropa Oyunlarının açılış mərasiminə onun qatılmaq istəyinə Bakının verdiyi kateqorik “yox” cavabında əksini tapdı.

***

**Abbas Abbasova ilk ciddi zərbə isə Azərbaycandakı biznesinin çökdürülməsi ilə vuruldu.** Bunun ardınca, onun qardaşı Nadir Abbasov Azərbaycan Beynəlxalq Bankından götürdüyü 10 milyon dollar krediti ödəyə bilmədiyi üçün DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparıldı. Onun bir müddət əvvəl Gəncədə keçmiş Yeyinti Ticarəti İdarəsinin bazasında soyuducular tikmək üçün kredit götürdüyü və pulu vaxtında ödəyə bilmədiyi üçün saxlandığı bildirilir.

Əksər təhlilçilər isə əmindirlər ki, Nadir Abbasovun həbsi də Azərbaycan hakimiyyəti ilə Abbas Abbasov arasındakı gərginliklə bağlı olub. Burdaca bildirək ki, Beynəlxalq Bankın Moskva filialının bank kreditləri şöbəsinin direktoru Fərhad Rüstəmov Nadir Abbasovun kürəkənidir. Moskva filialının rəhbəri, hakimiyyətin Rusiyadakı müxalifətinin gizli sponsorlarından sayılan Fuad Abdullayev isə Abbas Abbasovun yaxın adamlardan sayılır, hətta onun Cahangir Hacıyevin yerinə gətiriləcəyi ilə bağlı məlumatlar yayılıb. Aydındır ki, rəsmi Bakı ilə gərgin münasibətlərdə olan birisinin adamı üçün belə perspektiv ola bilməz. Yəni qurumun buraxılmasında bu amilin də rol oynadığını qulaqardı eləmək olmaz...

***

Bundan əlavə, Nadir Abbasovun həbsindən sonra Abbas Abbasovun digər qardaşı (Həmid) və hətta deputat oğlu Aydın Abbasova da həbs təhlükəsi yarandığı deyilirdi. İddialara görə, hakimiyyət Abbas Abbasova sarsıdıcı zərbə vurmaq üçün deputat Abbasovun da həbsini nəzərdən keçirir. RATİ-nin məhz Abbas Abbasovun oğlu ilə bağlı informasiyadan sonra buraxılması xüsusilə diqqət çəkir.

Onu da nəzərə alsaq ki, baş nazirin sabiq 1-ci müavinin Rusiyadakı səfirimiz Polad Bülbüloğlu ilə sıx əlaqədə olduğu deyilir və bu iddialar təkzib olunmayıb, o zaman səfirin ona hakimiyyətin bəzi incə mesajlarını çatdırdığı istisna deyil...

***

**Beləliklə, Abbas Abbasovun son gedişi müstəsna olaraq özünün, oğlunun və ətrafında mühasirəsi daralan digər yaxınlarının xilasına yönələn addım təəssüratını yaradır. Bununla o, umduğu dividenti qazana, hədəfinə çata, ən əsası, hakimiyyətin mərhəmətinə nail olub onunla yandırılmış körpüləri bərpa edə biləcəkmi?**

Gözləyək.

❑ **Analitik xidmət**

# Poroşenko Avropa Oyunları ilə bağlı İlham Əliyevi təbrik etdi

**Ukrayna prezidenti Pyotr Poroşenko axır ki, azərbaycanlı həmkarı İlham Əliyev qarşısında öz günahını “yudu”. Musavat.com minval.az-a istinadla xəbər verir ki, Ukrayna lideri Azərbaycan prezidentinə göndərdiyi rəsmi məktubda onu və bütün Azərbaycan xalqını I Avropa Oyunlarının uğurlu keçirilməsi münasibətilə təbrik edib.**



Ukrayna dövlət başçısı oyunlarla bağlı bütün tədbirlərin təşkilatçılığının olduqca yüksək səviyyədə olduğunu qeyd edib. “Bu da Azərbaycan Respublikasının dünya miqyaslı idman tədbirlərini, o cümlədən Yay Olimpiya Oyunlarını keçirməyə hazır olduğunu göstərdi" - deyə, məktubda vurğulanır.

Poroşenko həmçinin, ukraynalı idmançıların və məşqçilərin bütün idman yarışı boyu Azərbaycan xalqının isti münasibəti ilə üzləşməsini, Azərbaycan azarkeşləri tərəfindən qızğın dəstəklənməsini minnətdarlıqla qeyd edib.

Məktubun sonunda Ukrayna prezidenti əminlik ifadə edib ki, ilk Avropa Oyunları idman hərəkatı tarixində parlaq bir səhifə olmaqla, qonaqpərvər və günəşli Azərbaycana baş çəkmiş qonaqların hamısının həyatının unudulmaz hissəsi kimi qalacaq. Sonda o, İlham Əliyevə Azərbaycan xalqının rifahı naminə cansağlığı və yeni uğurlar arzu edib.

**Xatırladaq ki, Poroşenko I Avropa Oyunlarının nə açılış, nə də bağlanış mərasimlərinə qatılmışdı.**

YENİ MÜSAVAT
N 148 (6176) 9 iyul 2015



# Qonşu rayonda ehsan vermək

Xalid KAZIMLI

**Bu il martın 16-da "Toy-yas mafiyasının qələbəsi" başlıqlı yazı yazmışdım və başlıqdan da məlum olduğu kimi, uyğun sahədəki problemlərə toxunmuşdum.**

Yazı dərc olunan gün Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı zəng etdi, təxminən yarım saat ərzində bu mövzuda fikirlərimizi bölüşdük. Komitə sədri yazıda irəli sürülən mülahizələrlə əsasən razılaşdığını bildirdi, razılaşmadığı məqamları dedi, ümumən faydalı söhbətimiz oldu.

Belə anlaşmışdıq ki, yas mərasimlərinin keçirilməsi xüsusunda neqativ hallarla rastlaşarsam, yazım, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi də gücü, səlahiyyəti çatdığı qədər tədbir görsün.

Budur, bu mövzuda yeni bir yazının yazılmasını vacib edən xüsusat var.

Bir neçə gün öncə bu mövzuda nəsə yazmağı məndən Cavanşir adlı həmkəndlim xahiş etdi. O, Bakıda yaşayır, ancaq 40 gün öncə rayonda yaşayan kiçik qardaşı gənc yaşda vəfat edib və Cavanşir hüzr mərasimlərini verərkən problemlə üzləşib.

Məsələ belədir: vəfat edən şəxs məcburi köçkün rayonunun sakini olduğundan hüzr məclisinə ölkənin bir çox yerindən - Bakıdan, Gəncədən, Şirvandan, Sumqayıtdan və başqa yerlərdən qonaqlar gəlib və hüzr evi yerli adamlarla onların arasından ayrı-seçkilik qoymalı olub.

Ötən ilin sentyabrından başlayaraq toy və yas mərasimlərinin təmtəraqlı keçirilməsinə qarşı aparılan, bir ara mediada geniş müzakirə olunan kampaniyadan sonra bir çox yerlərdə belə bir qayda formalaşıb ki, uzaqdan gələn qonaqlara ehsan olaraq yemək verilsin, amma yerli camaat çayla yola salınsın.

Neçə vaxtdır bu qaydaya riayət edilir. Hətta mollalar qənddandakı qəndin üzərindəki konfetlərin yığışdırılmasını vacib sayırlar ki, rayon rəhbərliyinin qəzəbinə gəlməsinlər.

Cavanşir danışır ki, o, hüzrə gələn qonaqları, kobud desək, çeşidləyərkən, yəni "uzaqdan gələnlər"i xörək verilən mağara, "qəsəbə camaatı"nı çay verilən mağara yola salarkən özünü çox naqolay durumda hiss edib, uzun illər xeyrində-şərində iştirak etdiyi adamların yanında xəcalət çəkib.

Həmkəndlim deyir ki, bir çox rayonlarda, Bakı şəhərinin özündə hüzr məclislərində "gəlmə-yerli" ayrı-seçkiliyi yoxdur, ehsan hamıya verilir.

Vaxtilə Xalq Təsərrüfatı İnstitutunda Mübariz müəllimin tələbəsi olmuş Cavanşir bu məsələni komitə sədrinin diqqətinə çatdırmağı bu yazının müəllifindən xahiş edərək deyir: "Müəllimə de ki, ya hər yanda eyni cür olsun, ya da bir rayonda belə, başqa rayonda elə olmasın. Pis vəziyyətdə qalırıq".

Eyni məsələnin iki qonşu rayonda bir cür, o birində başqa cür həll olunduğunu deyən başqa bir həmsöhbətim isə bildirir ki, yası düşmüş ailə məcburiyyət üzündən hüzr məclisini gedib qonşu rayonda - Beyləqanda keçirib, çünki orda ehsana qadağa qoyulmayıbmış.

Bu, bir tarixi ənənədir: hüzrü düşən ailə qonaqlarına mütləq ehsan verir, özünü buna borclu sayır. Əslində bu hərəkətin fəlsəfəsi ondan ibarətdir ki, ailə uzaqdan-yaxından gələn və uzun çəkən mərasimdə iştirak edən adamların ehtiyaclarını nəzərə alır, onları uzaq mənzilə ac-susuz yola salmaq istəmir. Bu, normaldır.

Normal olmayan şey ildən-ilə daha təmtəraqlı, bol çeşidli ehsan süfrəsi açmaq yarışının başlanması idi. Bəzi imkanlı şəxslər əzizlərinin hüzr məclislərində varidat nümayiş etdirmək yarışına çıxmışdılar və bunun qarşısı alınmasa tezliklə ehsan süfrələrində qara kürü, suşi, avakado-filan da görünəcəkdi.

Hazırda isə bəzi imkanlı şəxslər də öz yaxınlarının hüzr məclisində sadə ehsan süfrəsi açırlar və bu, başqalarına nümunə olmaq baxımından faydalıdır.

**Bu da bəlli faktdır ki, istənilən mədəni cəmiyyətdə formalaşan adət-ənənələr vaxtilə tətbiq edilmiş qayda-qanunların, yasaqların məhsuludur. Heç nə, heç bir düzən, əndazə öz-özünə əmələ gəlmir. Ancaq hər halda, nəsə bir yasaq tətbiq edərkən boşluqlara yol verilməməlidir ki, bu da ayrı-seçkiliyə səbəb olsun.**

# Müxalifət seçki hazırlıqlarını sürətləndirib

## Əksər dairələr üzrə namizədlərin müəyyənləşdirilməsi prosesi başa çatmaq üzrədir; seçkilərə tək gedən qurumlar da var; orucluğa görə hazırlıqları dayandıran partiya hansıdır?..

**Noyabrın 1-də keçiriləcək parlament seçkilərinin zamanı qısaldıqca prosesdə iştirak edəcək siyasi qurumların fəallığı artmağa başlayıb. Artıq bir sıra birlik, bloklar yaradılıb. Bəzi qurumlar dairələrdə namizədlərini də müəyyən ediblər. Gedən proseslər ona göstərir ki, seçkilərdə əksər qurumlar iştirak edəcək. Yalnız Milli Şuranın mövqeyi bu məsələdə müəmmalıdır. Seçkilərdə iştirak edəcək müxalif qurumların hazırlıqları ilə maraqlandıq.**



Gülağa Aslanlı



Sərdar Cəlaloğlu



Xəzər Teyyublu

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** namizədlərin dairələr üzrə müəyyənləşdirilməsi prosesinin davam etdiyini söylədi: "Eyni zamanda namizədlərin dairələrdə sorğu keçirmək işinə də başlanılıb. Xüsusi bir sənəd namizədlər üçün hazırlanır. Ən azı gələn həftənin sonunadək bu prosesi başa çatdırmağı düşünürük. Həm namizəd, həm də rayon təşkilatının seçki qərargahlarını müəyyən etməsi, müşahidəçilər hazırlamaları işləri davam edir. Müsavat Məclisinin növbəti toplantısı Seçki Məcəlləsinə uyğun olaraq keçiriləcək. Belə ki, seçki günü müəyyən edilməlidir. Həmin gündən asılı olaraq, Məclisin çağırılması və namizədlərin təsdiq edilməsi gözlənilir".

**Ümid Partiyası Ali Məclisi sədrinin və "125-lər" Siyasi Klubunun sədr müavini Tamilla Qulami** hər iki qurumda seçkilərə hazırlığın yüksək səviyyədə getdiyini dedi: "Artıq namizəd olacaq üzvlərimiz də öz dairələrini təsdiqləyib. Hazırda seçkinin son mərhələsindəyik. Fəaliyyətimizi qənaətbəxş hesab etmək olar. Ümumiyyətlə, seçkidə iştirak etmək arzusunda olan hər bir namizəd öz gücünü, bacarığını, ictimai və siyasi potensialını, cəmiyyətin ona münasibətini və cəmiyyətə verə biləcəklərini obyektiv dəyərləndirərək hərəkət etməlidir. İnanıram ki, bu yolda əziyyət çəkən hər kəs əziyyətinin bəhrəsini görəcək".

**ADP sədri Sərdar Cəlaloğlu** qurumda hələ ki, seçkilərlə bağlı ciddi işlərin getmədiyini qeyd etdi: "Çünki partiyanın rəhbər strukturları orucluq bitənə qədər yay məzuniyyətinə çıxıb. Ümumiyyətlə, seçkilərlə bağlı cəmiyyətdə elə bir vəziyyət yaranıb ki, partiyaların fəallıq göstərmələrinin heç bir mənası yoxdur. Gərək cəmiyyət özü hərəkətdə ola ki, biz ona uyğun hərəkət edək. Qarşıdan gələn seçkilərlə bağlı müəyyən planlarımız var. Bütün partiyaların hər birində yarandığı gündən özünəməxsus seçki planı var. Hər bir seçkidə o plana uyğun hərəkət edilir. Sadəcə hər seçkinin xarakterinə uyğun cüzi dəyişikliklər edilməklə addımlar atılır".

**AMİP sədri Yusif Bağırzadə** seçki qərargahlarının daim fəaliyyət göstərdiyindən söz açdı: "Son prezident seçkilərində biz namizədlə çıxış etmədik və heç kimi də dəstəkləmədik. Onda bəyanat verdik ki, parlament seçkilərinə hazırlaşırıq. Seçkidə iştirak etmək qəti qərarımızdır. Hələ ki tək seçkilərə gedirik. Amma blok şəklində də ola bilər. Bəzi dairələr var ki, bir neçə üzvümüz namizəd olmaq istəyir. Bunlar bir az problemlər yaradır. Elə dairələr ola bilər ki, namizədimiz olmasın. Biz orada bizimlə əməkdaşlıq edən qurumun namizədinə dəstək verəcəyik".

**KXCP sədrinin müavini Xəzər Teyyublu** seçki hazırlıqları ilə bağlı bunları dedi: "Hazırda seçki dairələri öyrənilir. Namizədlərin kimliyi məsələsi daha aktualdır. Elə bir şəxslər olmalıdır ki, əhali onu tanısın. Zamanı çatanda iddiaçılarımızın adları açıqlanacaq. "Azadlıq-2015" seçki blokunda təmsil olunduğumuzdan üst-üstə düşən namizədlər var. Bu məsələlər də geniş müzakirə olunur. Yəqin ki, razılaşmalar olacaq".

**VHP İcra Aparatının rəhbəri Samir Əsədli** bir sıra dairələr üzrə siyahılarının hazır olduğunu bildirdi: "Seçki qərargahı rayon təşkilatları ilə birgə 125 seçki dairəsi üzrə dəyərləndirmələr aparır və dairələr üzrə irəli sürüləcək namizədlər dəqiqləşdirilir. Bir sıra seçki dairələri üzrə siyahımız hazır olsa da, hələlik qəti qərar verilməyib. Seçki dairələri, yerli seçki mühiti, namizədin seçki dairəsi ilə əlaqələri, seçicinin ona münasibətini analiz edirik. Namizədlərimiz partiya rəhbərliyinə daxil olan şəxslər, müstəqil ziyalılar, rayon təşkilatının sədrləri, Ali Məclis üzvləridir. Əsasən gənclərə üstünlük vermək niyyətindəyik. Həmçinin namizədlərə treninqlər keçiriləcək, yerli seçki mühiti və region əhalisi ilə işləmək üçün təcrübələrimizi bölüşəcəyik. Hazırda rayonlarda yerli təşkilatların konfransları keçirilir, konfranslarda seçkilər ciddi müzakirə edilir. Biz partiya olaraq təkbaşına seçkiyə qatılmaq istəyirik. Seçki zamanı situasiya nə olacaqsa, yeqin ki, partiya qərarını ona uyğun verəcək".

❑ Cavanşir ABBASLI

# Prezidentlə Qarabağ toplantısı - "Azadlıq-2015" müraciət etdi



**"Azadlıq-2015" Seçki Blokunun Sədrlər Şurasının növbəti yığıncağı keçirilib. Musavat.com-a verilən məlumata görə, iclasda aşağıdakı məsələlər müzakirə olunub və qərar verilib:**

1. Ramazan bayramı münasibəti ilə bütün siyasi məhbusların azad edilməsi ilə bağlı əfv fərmanın verilməsi barəsində Azərbaycan Respublikası Prezidentinə müraciət edilib;

2. Qarabağ ətrafında cəbhə bölgəsində vəziyyətin gərginləşməsi ilə bağlı ölkənin siyasi rəhbərliyinin və ictimai-siyasi qüvvələrin birgə toplantısının keçirilməsi məqsədəuyğun hesab edilib və bununla bağlı hakimiyyətə müraciət ünvanlanıb. Rusiyanın Ermənistanı müasir hücum silahları ilə silahlandırması Azərbaycanın təhlükəsizliyi üçün təhdid sayılaraq, pislənilib;

3. Seçki blokunun 2015-ci il parlament seçkiləri ilə bağlı monitorinqi və seçkiqabağı vəziyyətin dəyərləndirilməsinə dair sənədin hazırlanması Mərkəzi Seçki Qərargahına tapşırılıb;

4. Seçkilərdə qeydə alınmış partiya kimi iştirakının təmin edilməsi üçün Azad Demokratlar Partiyasının seçkiyə qədər qeydiyyata alınması ilə bağlı Ədliyyə Nazirliyinə müraciət edilib.

# Vitse-spiker ATƏT PA-da girovlarımızdan danışıb

**"Azərbaycan vətəndaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevin girov götürülməsi Ermənistan tərəfindən dövlət səviyyəsində azərbaycanlılara qarşı dözümsüzlük siyasətinin aparılmasının sübutudur".**



Bahar Muradova

APA-nın məlumatına görə, bunu Milli Məclisin vitse-spikeri Bahar Muradova ATƏT PA-nın növbəti sessiyasında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, həmin şəxslər Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında öz valideynlərinin qəbirlərini ziyarət etmək hüququndan istifadə edərkən girov götürülüb: "Bu gün Azərbaycan vətəndaşı olmuş Ermənistan prezidenti "qəhrəmanlaşdırılır". Bu cür "qəhrəmanlıq" onun ötən əsrin 90-cı illərində insanlığa qarşı cinayətlərində, o cümlədən Xocalıda qırğınlar törətməsində özünü göstərib. O, cinayət məsuliyyətindən qaçıb və Ermənistandan sığınacaq alıb".

**B. Muradova bildirib ki, Ermənistanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Artaşes Geqamyanın qaçqınların qovulduğu ərazilərə, o cümlədən Zəngəzur və İrəvana qayıtması ideyasına qarşı qıcıqlanması etnik təmizləmə təbliğatı ilə eyni mahiyyət daşıyır.**

YENİ MÜSAVAT
N 148 (6176) 9 iyul 2015

**Deputat Rasim Musabəyovla jurnalist, virtualaz.org və haqqin.az saytlarının rəhbəri Eynulla Fətullayev arasında başlayan qalmaqal getdikcə böyüyür. Deputatın jurnalistin onun siyasi keçmişinə nəzər salan və "Mən həmişə Əliyevə qarşı işləmişəm..." başlıqlı məqaləsinə cavab olaraq "Eynulla gəbərəndə bu alçağı tanıyan hər kəs deyəcək - itə it ölümü yaraşır" deyib.**

# Eynulla Fətullayevdən deputatın fikirlərinə növbəti sərt cavab

## Tərəflər arasında gərginlik daha da artır; **Eynulla Fətullayev:** "Rusiya Dövlət Dumasının deputatı hansı jurnalist haqqında belə bir fikir söyləsəydi, orada nə baş verərdi?"


Rasim Musabəyov


Eynulla Fətullayev

Bundan sonra isə E.Fətullayev təhlükəsizliyinə təminat vermək üçün baş prokuror Zakir Qaralova, milli təhlükəsizlik naziri Eldar Mahmudova və daxili işlər naziri Ramil Usubova müraciət edib.

**Məsələ o qədər şişib ki, eks-prezident Ayaz Mütəllibov da münasibət bildirərək, deputatın ünvanına sərt danışıb:** "Siyasətlə məşğul olan adam siyasi mübahisələri küçə xuliqanlığı səviyyəsinə endirməməlidir. Əgər sən siyasətçisənsə, tənqidlərə dözümlü olmalısan, emosiyalarını cilovlamağı bacarmalısan. Prezidentliyim dövründə Musabəyov mənim administrasiyamda işləyirdi. Onunla şəxsən tanış deyildim, amma bilirdim ki, hansısa analitik məqalələr yazır, politologiya ilə məşğul olur. Ona görə də ona bir az da yetişməyi, müdrikləşməyi və danışığına fikir verməyi məsləhət görərdim".

**E.Fətullayev "Yeni Müsavat"a açıqlamasında qarşı tərəfdən ziyalıya yaraşmayan münasibət gördüyünü bildirdi:** "Gündə 3-5 məqalə yazırıq. Qarşı tərəfdən daha çox dözülməz, isterik, ziyalı insana yaraşmayan münasibət gördük. Jurnalistə ölüm çağırışı nəyə lazım idi? Elmar Hüseynovun qətlini xatırladtı. Hüquq-mühafizə orqanlarının rəhbərlərinə müraciət elədim ki, bu adam deyir, Elmar Hüseynovu güllələdilər, çağırış edirəm, Eynulla Fətullayevi də güllələsinlər. Bu nə deməkdir? Bu bir daha onu göstərir ki, Azərbaycanda hüquqi müstəvidə ciddi problem və boşluqlar var. Rusiya Dövlət Dumasının deputatı hansı jurnalist haqqında belə bir fikir söyləsəydi, orada nə baş verərdi? Amma gördüyünüz kimi, Azərbaycanda sükut, susqunluqdur. Heç kəs buna bir reaksiya vermir. Bu bir daha onu göstərir ki, Azərbaycan jurnalistləri hansı durumdadır, biz hansı yükün altındayıq. Millət vəkili çağırış edir ki, jurnalisti güllələyin. Məlum deyil kimə çağırış edir, kimi səsləyir. Hesab edir ki, o, doğrudur. Mənə bu məsələ maraqlıdır ki, Rasim Musabəyov nə mesaj göndərir, nə demək istəyir. Bunlar suallar doğurur. Özü də çox ciddi suallar doğurur".

**Jurnalist deputatla bağlı yazdığı məqalədə yalanların olmadığını söylədi:** "Həmin məqalədə yalan yazmamışam. Rasim Musabəyov Mütəllibovun müşaviri işləməyib? İşləyib. Sonralar Tamerlan Qarayevin qəbul otağında oturmayıb? Oturub. Müsavat Partiyasının Divan üzvü olmayıb? Olub. Müsavatın Divanından çıxıb, Elnur Aslanovungilin dairəsinə daxil olmayıb? Olub. Yazdıqlarım həqiqətdir. Bir yalan yazsaydım, irad bildirə bilərdi. Adekvat cavab həqiqət səslənəndə olur. Həqiqət səslənəndə cavab da qeyri-adekvat olur. Fikirlərimdə qərəzli olsaydım, yalan danışsaydım, o zaman cavab da adekvat olardı. Deyə bilərdi ki, jurnalist düzgün yazmır, Mütəllibovun müşaviri olmamışam. Bildiyiniz kimi, Ayaz Mütəllibovun özü də onu pislədi. Bəyanat verərək təəssüfləndiyini bildirdi ki, politoloq olan şəxs özünü küçə xuliqanı kimi aparır. Mən bu hərəkəti Azərbaycanın istənilən millət vəkilindən gözləyərdim, amma Musabəyovdan yox. Nə yaxşı ki, bunu da gördük. Hesab edirəm ki, onun psixikasında problem var. Çünki normal adam bu cür fikirlər səsləndirməzdi. Görünür, həqiqət həqiqətdir. Həqiqət yandırır, acıdır. Həqiqət insanı daim daxildən yaralayır. Ona görə də bizə bu cür reaksiya verildi. Ən böyük hakim Azərbaycan ictimaiyyətidir. Allah ona görə dəvəyə qanad vermir. Yaxşı Rasim Musabəyov millət vəkilidir. Sabah o, nazir olsaydı, yaxud Ayaz Mütəllibovun vaxtındakı kimi Prezident Administrasiyasında yüksək vəzifə sahibi olsaydı, o adam Azərbaycan küçələrində jurnalistləri güllələyərdi. Liberalizm, demokratiya, tolerantlıqdan, insan dəyərlərindən danışan insan jurnalistin güllələnməsinə eyham vurur. Buna çağırış edir".

**Eynulla Fətullayev etdiyi müraciətlərdən də danışdı:** "Aidiyyəti qurumlara müraciətlərimi etmişəm. Yəqin ki, münasibət bildirilər. Prezident İlham Əliyev hər çıxışında deyir ki, Azərbaycan sabit dövlətdir, qanunlar işləyir, biz hüquqi dövlət qurmuşuq, hüquq mexanizmləri var, insanlar əmin-amanlıq içərisində yaşayır. Buradan da deputat deyir ki, jurnalisti güllələmək lazımdır. Bu nə deməkdir? Bu, hesab edirəm ki, İlham Əliyevə qarşı üsyandır, prezidentə arxadan vurulan zərbədir. Vaxtı ilə Rasim Musabəyov Ayaz Mütəllibova, sonradan İsa Qəmbərə necə arxadan zərbə vurdusa, İlham Əliyevə də belə zərbə vurdu. Özü də bu yolla..."

❑ Cavanşir ABBASLI

# "Heç bir milyonçu gəlib pulunu Qarabağda xərcləməz"

## **Zahid Oruc:** "Bütün yararlı torpaqları əkib-becərmək və orada Kipr modelli bir məkan qurmaq yalnız ölkəmizin gücü daxilindədir"

## **Hikmət Hacıyev:** "Şuşada mətbuat konfransının keçirilməsi barədə German Sterliqov tərəfindən verilən açıqlama təxribatçı addımdır"

**Rusiyalı milyarderin Qarabağa köçməsi xəbəri siyasi avantüradan başqa bir şey deyil. Hətta burada qurulmuş ssenariyə təbii xarakter verməyi də unudublar və görünür, ermənilər özləri də yaxşı bilir ki, yaxın gələcəkdə həqiqət tam üzə çıxanda onun hansı əks nəticələri olacaq".**



**Milli Məclisin üzvü, deputat Zahid Oruc** bu fikirləri Rusiyanın ilk milyarderlərindən biri, məşhur fermer Qerman Sterliqovun arvadı və 5 uşağı ilə birlikdə Qarabağa qanunsuz köçünü "Yeni Müsavat"a şərh edərkən söylədi. Deputat xatırlatdı ki, Rusiya kütləvi informasiya vasitələrində Sterligovun iflasa uğraması fonunda bütün mülkiyyətini və iqtisadi planlarını bir kənara ataraq, başını götürüb harasa qaçdığından bəhs olunur: "Lakin gerçəkdənmi Qarabağ o qədər iqtisadi cazibədarlıq qazanıb ki, bir çox iş adamları oraya köçməyə artıq risk etmirlər? Gerçəklik ermənilərin təqdimatından tam fərqlənir və həmin acı reallığı Qarabağ üçün Ermənistan yaradıb. Bir tərəfdən daimi müharibə təhlükəsi kiçik bir adada hər hansı transmilli layihələrin üzərindən xətt çəkib. Sərkisyanın vaxtilə neft kəmərlərinin nədən Xankəndindən keçmədiyini dilə gətirməsi nə qədər sərsəm bəyanat təsiri bağışlayırdısa, bir o qədər də düşmənin nələri itirdiyini tam miqyasda təsəvvür etməyə imkan yaradırdı. Məhz ona görə də Qarabağda yaşayan əhali təbii müttəfiqindən və hamisindən - Azərbaycandan məhrum olaraq tam kriminal hərbi rejimin təsiri altına düşdü".

**Z.Orucun sözlərinə görə, bu gün Qarabağın kənd təsərrüfatı və sənayesindən danışmaq qeyri-mümkündür:** "Çünki bütün yararlı torpaqları əkib-becərmək və orada Kipr modelli bir məkan qurmaq yalnız bizim ölkəmizin gücü daxilindədir. Deməli, Qarabağın inkişafı onun yalnız Azərbaycanın suveren idarəçiliyi altına qayıtmasından keçir. Həmin bölgəyə investisiya qoymaq perspektivli olsaydı, onu ermənilər heç bir rusa güzəştə getməzdilər. Xatırladaq ki, Qarabağın illik büdcəsi 178 milyon dollardır. Müqayisə edə bilərsiniz - Naxçıvan Muxtar Respublikasının investisiya xərcləri və birbaşa büdcədən maliyyələşməsi yarım milyard manata yaxın vəsait deməkdir. Ermənilər regionu təcavüzkarlıq siyasəti ilə irəliyə apara bilmədilər və indi orada nəinki varlılar, heç kasıblar da yaşamaq istəmir. Məşhur erməni politoloqu bu yaxınlarda haqlı olaraq etiraf etmişdi ki, vaxtilə Xankəndində ayağa qalxan on minlərlə insanın şüarları Razdan meydanını ehtizaza gətirirdi. İndi isə Qarabağa görə zorla ora göndərilən ermənilərdən başqa həmin diyara bir kimsə can atmır. Sonuncu xəbərdən də müxtəlif varlıları "Qafqazın mirvarisi"nə cəlb etmək üçün ortaya atsalar da, heç bir milyonçu gəlib pulunu Qarabağda xərcləməz".

**Qeyd edək ki, rus milyarder Şuşada mətbuat konfransı keçirəcəyini elan edib və konkret vaxt da göstərib.**

"Ermənistan tərəfindən işğal edilmiş qədim Azərbaycan şəhəri olan Şuşada mətbuat konfransının keçirilməsi barəsində German Sterliqov tərəfindən verilən açıqlama təxribatçı addımdır". **Bunu Qarabağa köçən G.Sterliqovun iyulun 13-də Şuşada mətbuat konfransı keçirəcəyi barədəki bəyanatını virtualaz.org saytına şərh edən Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib. H.Hacıyevin sözlərinə görə, Azərbaycan XİN qanun pozuntusuna yol verərək Azərbaycanın işğal ərazilərində yerləşən Sterliqov adlı şəxsin bu təxribatçı çağırışının təsiri altına düşməmək barədə xəbərdar etmək istərdi. Hansı hallarda xarici KİV nümayəndələrinin Azərbaycanın işğal altında olan ərazilərinə necə səfər edə biləcəyi və bu günlərdə İrlandiya jurnalistinin bu kimi səfəri barədə sualı cavablandıran H.Hacıyev deyib:** "Ümumiyyətlə, peşəkar jurnalist fəaliyyətini həyata keçirmək üçün Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfər etmək niyyətində olan KİV nümayəndələri səfər üçün icazə almaq məqsədilə əvvəlcədən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə rəsmi məktubla müraciət etməlidir. Azərbaycan Respublikasının "KİV haqqında qanunu"na uyğun olaraq, Azərbaycan Respublikası ərazisində xarici KİV nümayəndələrinin akkreditasiyası XİN tərəfindən həyata keçirilir. Məsələn, "Nyu-York Tımes" qəzetinin əməkdaşları belə bir müraciətlə çıxış etmiş və Xarici İşlər Nazirliyi tərəfindən verilmiş akkreditasiya kartları əsasında onlar işğal olunmuş ərazilərə səfər etmişdilər. XİN tərəfindən xarici KİV nümayəndələrinə verilən akkreditasiya kartı Azərbaycan Respublikası ərazisində, o cümlədən işğal olunmuş ərazilərdə xarici KİV nümayəndəsinin fəaliyyətinə icazə verən yeganə qanuni sənəddir. Əvvəlcədən müraciət etmədən və müvafiq akkreditasiya kartı almadan xarici KİV nümayəndəsinin işğal olunmuş ərazilərə səfəri qeyri-qanunidir və bununla əlaqədar müvafiq tədbirlər, o cümlədən arzuedilməz şəxslər siyahısına daxil etmək kimi tədbirlər görülür".

❑ E.PAŞASOY



# Kifayət adlı oğlan

Zamin HACI
zaminhaci@gmail.com

"Kişinin oğlu olar, igidin qızı"
**(Qədim türk ata sözü)**

***

**Dünən hardasa statistika oxudum: Azərbaycanda illik abort sayı 30 min imiş. Ölkədə illik doğum sayının 120-130 min arası dəyişdiyini nəzərə alsaq 30 min abortun heç də kiçik rəqəm olmadığı aydındır. Özü də bunun statistikası düzgün aparılsa abort sayının bəlkə də iki dəfə çox olması, abort edilən uşaqların isə cins baxımından hər 10 nəfərindən 9-nun qız uşağı olması ortaya çıxar.**

Çox qeyri-səmimi, saxtakar cəmiyyətdə yaşayırıq. Yalandan "cənnət anaların ayağı altındadır", "qadına böyük hörmətimiz var" deyərlər, amma qadınların Azərbaycanın ictimai-siyasi həyatında yeri sıfıra yaxındır.

Elementar bir örnək çəkim. Ətrafınıza, qohum-əqrəbaya diqqət edin: böyük uşaq oğlan, kiçik uşaq qız olan neçə ailə tanıyırsınız? Barmaq sayı qədər olacaq. Amma hara baxsan bir, yaxud iki-üç böyük qız, yanlarında balaca qardaşlarını görərsən. Çünki azərbaycanlılar "bu işi" adətən oğlan uşağı doğulana qədər davam etdirirlər. Mənim rəhmətlik riyaziyyat müəllimim var idi, insafən çox yaxşı adam idi, ancaq ... səkkiz qız dünyaya gətirmişdi! Bunu qızlara məhəbbəti üzündən etmirdi təbii ki. Cəmiyyətin qızı olan kişilərə böyük basqısı var. Beləsini, yalan olmasın, kişi hesab eləmirlər. Kişi olmaq üçün gərək oğlun doğulsun.

Elə öz şeyxinizin tərcümeyi-halı bunun başqa sübutudur. Sizcə onun adını niyə "Allahşükür" qoyublar? Doqquz qızdan sonra doğulduğu üçün! Belə adlarımız çoxdur. İndi yenə ətrafınıza baxın, görün neçə ailədə çox yox, 5-6 oğlandan sonra doğulan, adı misal üçün, "Şükriyyə" olan qız tanıyırsınız? Kifayət, Bəsti, Yetər, Tamam, Qızbəs, Qıztamam, Qızyetər... Bizim qız uşaqlarına qoyduğumuz adlar budur də! Halbuki, islamaqədərki azərbaycanlılarda "oğlu olanı ağ, qızı olanı al çadıra yerləşdirmək" kimi bir düşüncə vardı. Qədim türklər qadınla kişi arasına heç bir fərq qoymaz, kimisə cinsinə görə aşağılamazdılar. Nə qədər paradoksal olsa da, bunu bizə islam, ərəblər gətirdi. Ona görə paradoksal yazıram ki, dini inanclara görə islam qadına böyük hörmət qoyur, islamaqədərki ərəblər qız uşağını heç sevməzmiş və sairə. Əlbəttə, heç deyən yoxdur o cür hörmətsizlik şəraitində peyğəmbərin xanımı Xədicə ticarətdə necə uğur qazanmışdı, çağdaş müsəlman ölkələrində neçə belə uğurlu müsəlman qadını saymaq mümkündür. Dəxli yoxdur, istər siyasət olsun, istər elm, ticarət və s. Bir Benazir Bhutto vardı Pakistanda, onu da öldürdülər.

Azərbaycan cəmiyyətinin başqa bir saxtakarlıq əlamətini arxitekturada tapmaq olar. Görün ölkədə oğurluq, əliəyrilik necə dəhşətli miqyasda yayılıbsa insanlar hətta 9 qatlı binanın 7, 8-ci qatlarında da pəncərələrə qəfəs (reşotka) vururlar! Dünyanın başqa hansısa ölkəsində göydələnə qəfəs vurmaq ənənəsi varmı? Mən görməmişəm. Bu fonda isə hamı düzgünlükdən, halallıqdan dəm vurur. Beş manat pulu etibar edib beş günlüyə harasa getməyə beş nəfər tapsanız şükür edin. Uşaq vaxtı yadımdadır, ədəbiyyat dərsində bizə Qasım bəy Zakirin bir şeirini keçmişdilər. Sən demə şairin atını Qarabağ kəndliləri oğurlayıbmış. Bu misralar indiyəcən yadımdadır:

***"Zərgər, Dilağarda aləmdə aşkar,***
***Bir yandan oğurlar, bir yandan satar.***
***Vay o günə sahibi at başı tutar,***
***Hər yandan tökülər üstünə çomaq".***

Sən demə adı çəkilən kəndlərin sakinləri şairin atını çırpışdırıbmış, şair bunun üstünü açanda isə üzr istəmək yerinə tökülüb şairi budayıbmışlar. Amma hazırda həmin ərazilərdə şair atı oğurlamaq mümkün deyil - işğal edilib yandırılıb, darmadağın olunub.

**Sözümün canı odur ki, 19-cu əsrdən bəri düzgünlük sahəsində elə də böyük tərəqqi etməmişik. Bəlkə əksinə, daha geri getmişik.**

# Saakyan Londondakı tədbirə qatıldı; rəsmi Bakıdan növbəti etiraz

**Rəsmi Bakının etiraz notasına baxmayaraq, Böyük Britaniya Qarabağ separatçılarının başçısı Bako Saakyanın London səfərinə qadağa qoymayıb. Bir gün öncə Qarabağ separatçısının səfərinin təxirə salındığı xəbəri yayılsa da, bu, təsdiqini tapmayıb.**



Bako Saakyan



**Azərbaycan XİN:** "Bu, turizm səfəri olsa da, onunla rəsmi görüş keçirilməsə belə, bu kimi səfərlərə imkan verilməməlidir"



**Bayram Səfərov:** "Azərbaycanla Böyük Britaniyanın münasibətlərinə xələl gətirmək istəyirlər"

Xatırladaq ki, Böyük Britaniyanın Beynəlxalq Münasibətlər üzrə Kral İnstitutu *(The Royal Institute of International Affairs)* - "Chatham House" iyulun 8-də "Dağlıq Qarabağ: Regional çağırışlar" adlı müzakirələr keçirəcəyi barədə elan vermişdi. "Rusiya və Avrasiya" Proqramı tərəfindən həyata keçirilən toplantıya separatçı qurumun rəhbəri Bako Saakyan toplantıya spiker kimi dəvət edilib. "Chatham House" onu siyahıda "de-fakto Dağlıq Qarabağ Respublikasının prezidenti" kimi təqdim edib. Belə ki, Azərbaycan tərəfinin sərt reaksiyasından sonra bu elan saytdan götürülsə də, təəssüf ki, tədbir ləğv olunmayıb.

"**Chatham House" təyin olunmuş qalmaqallı Qarabağ müzakirələri baş tutub.** Strateq.az bildirir ki, Qondarma "DQR"in separatçı rəhbəri B.Saakyan tədbirdə məruzə ilə çıxış edib. Saakyan separatçı ərazidə "dövlət quruculuğu", "xarici və daxili siyasət", Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıb. Çıxışdan sonra toplantıda işitrak edən ekspertlərin suallarını cavablandırıb. Separatçıların lideri deyib ki, "Chatham House"un təhlükəsiz, firavan və ədalətli dünya devizi "ruhən onlara yaxındır". Görüşdə əcnəbi diplomatlar, alimlər və analitiklər iştirak edib.

Avropa Azərbaycan Cəmiyyəti (TEAS) Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyanla "Chatham House" İnstitutunda keçiriləcək görüşə buraxılmayıb. TEAS-dan verilən məlumatda bildirilir ki, təşkilat B.Saakyanın qatıldığı görüşdə iştirak edərək onun mövqeyinə dair həqiqəti çatdırmaq üçün icazə istəyib. "Lakin Kral Beynəlxalq Münasibətlər İnstitutuna uzun müddət üzv olmağımızla baxmayaraq, siz zorakı qüvvələr siyasəti üzrə təcrübəli mütəxəssislə bir arada olmağı üstün tutaraq, bizim iştirakımızı qəbul etməyi rədd etdiniz" - deyə məlumatda bildirilir.

**Avropa Azərbaycan Cəmiyyəti Saakyanın dəvəti ilə bağlı təşkilatçılara etiraz məktubu ünvanlayıb.** Bu barədə virtualaz.org saytına AAC-dan məlumat verilib. Müraciətdə deyilir: "Avropa Azərbaycan Cəmiyyəti yazaraq nəzərinizə çatdırır ki, Bako Saakyanın "Chatham House" Kral Beynəlxalq Münasibətlər İnstitutu tərəfindən rəsmi olaraq Böyük Britaniyaya görüşə dəvət olunması qərarı bizə ədalətli münasibət deyil. Bu hadisənin Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ müharibəsi zamanı 20 000 nəfərə qədər ailəsini və dostunu itirmiş və bu insanın ucbatından hələ də yerindən-yurdundan didərgin düşmüş minlərlə azərbaycanlı məcburi köçkünün sonsuz kədərinə səbəb olmasını, şübhəsiz ki, təsəvvür edə bilərsiniz. Sizin bu insanı "Chatham House"a dəvət etməyiniz keçən 23 il ərzində kifayət qədər əzab çəkmiş insanların üzünə təhqiramiz şillə kimi qəbul olunur. Xüsusilə də Ermənistandakı cari vəziyyəti nəzərə alsanız, bunun regionda sülh və demokratiyaya olan ümidlərə bir zərbə olduğuna əmin ola bilərsiniz. Siz çox yaxşı bilirsiniz ki, Bako Saaakyan dünyada heç bir ölkə tərəfindən tanınmayan qondarma rejimin təmsilçisidir. O, BMT, Avropa Şurası, NATO və bir çox digər təşkilatların Azərbaycan torpaqlarının işğalını dayandırmağı və hər şeyindən məhrum olmuş sakinlərin öz yurdlarına qayıtmasını tələb edən qətnamələrini təkzib edən silahlı qüvvələri təmsil edir. O, heç bir beynəlxalq hökumət tərəfindən tanınmayan qondarma seçkilər əsasında vəzifə tutmaq iddiasındadır və məhz o, öz ailələrinin qəbirlərini ziyarət etməyə gedərkən (həmin vaxt onların dostu da öldürüldü) girov götürülmüş iki azərbaycanlının saxlanmasına görə məsuliyyət daşıyır. Bako Saakyan da şübhəsiz ki, Gürcüstandakı və bu gün Ukraynada Donbas və Luqanskda günün mövzusu olan separatçılarla eyni rolu oynayır və eyni xidməti göstərir. Bunun da çətin ki, sözügedən regionlarda stabilliyə faydası olsun.

**TEAS sizdən xahiş etdi ki, ən azından bu keçmiş "KQB" rəhbərinin qatıldığı görüşdə iştirak edərək onun mövqeyinə dair həqiqəti çatdırmaq üçün bizə də icazə verəsiniz.** Kral Beynəlxalq Münasibətlər İnstitutuna uzun müddət üzv olmağımıza baxmayaraq, siz zorakı qüvvələr siyasəti üzrə təcrübəli mütəxəssislə bir arada olmağı üstün tutaraq, bizim iştirakımızı qəbul etməyi rədd etdiniz. Sizlər sizə olan etimadı itirdiniz; siz müstəqil siyasət institutu statusunuzla qürrələnməkdən utanmalısınız.

**Qeyd edək ki, Saakyanın Londona səfərinə ertiraz edən soydaşlarımız "Chatham House"un qarşısında etiraz aksiyası da keçirib.**

**"Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyinin sədri, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan İcması səviyyəsində Böyük Britaniya hökumətinə etiraz bildirməyə ehtiyac olmayıb: "Azərbaycan dövlətinin məsələyə etirazı olub və Böyük Britaniyanın səfiri də bildirib ki, London Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Mən inanmıram ki, Saakyanı kimsə rəsmi səviyyədə dəvət etsin. Bu, ermənilərin təxribatıdır, Azərbaycanla Böyük Britaniyanın münasibətlərinə xələl gətirmək istəyirlər". B.Səfərov bu kimi tədbirlərə dəvət alsa belə, Saakyanla üz-üzə oturmayacağını bildirdi: "Mən belə tədbirlərə getmərəm. O zaman mən də Bako Saakyanı qondarma qurumun başçısı kimi tanımış olaram. Odur ki, belə tədbirlərdə bizim iştirakımız mümkünsüzdür. Olmaz!"

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** isə etiraz notasına baxmayaraq, tədbirdə separatçı liderin iştirakına yaşıl işıq yandırılması barədə "Yeni Müsavat"a bunları bildirdi: "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin başçısı kimi özünü təqdim edən Bako Saakyanın Böyük Britaniyaya səfəri ilə əlaqədar XİN-in təlimatı əsasında bu ölkədəki səfirimiz Azərbaycanın etiraz məktubunu Britaniya XİN-ə təqdim edib. Eyni zamanda Britaniyanın Azərbaycandakı səfirı də XİN-ə dəvət olunub, dövlətin mövqeyi ona çatdırılıb. Səfir bildirib ki, rəsmi London Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ancaq bir məqamı əlavə edək ki, Saakyan adətən, Ermənistanın pasportu ilə hərəkət edir. Bu, bir daha onu göstərir ki, qondarma rejim Ermənistandan asılıdır, baxmayaq ki, işğalçı rejim bunu gizlətməyə çalışır. Düzdür, mahiyyət etibarilə bu, bir turizm səfəridir. Amma Azərbaycanın narahatlığı ondan ibarətdir ki, digər bu kimi hallarda olduğu kimi Azərbaycan ərazilərində yaradılan və qondarma rejimin başçısı kimi özünü təqdim edən şəxsə münasibətdə qadağalar tətbiq olunmur. Mahiyyət etibarilə bu, turizm səfəri olsa da, onunla rəsmi görüş keçirilməsə belə, bu kimi səfərlərə imkan verilməməlidir".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 148 (6176) 9 iyul 2015



**Qarabağ ətrafında gedən proseslər Azərbaycanın işğal altındakı ərazilərinin danışıqlar yolu ilə azad olunmasını ciddi şəkildə şübhə altına alır. Əgər Ermənistan Qarabağ iddiasından bir addım da olsun geri çəkilmirsə, üstəlik işğal altındakı ərazilərimizdə yuva salan separatçı-terrorçu rejim vaxtaşırı Azərbaycana meydan oxuyursa, hətta özünü "müstəqil subyekt" kimi təqdim etmək iddiasını ortaya qoymağa, qanunsuz məskunlaşma yolu ilə vəziyyəti öz xeyrinə dəyişməyə çalışırsa, deməli, sülh yolu ilə tənzimlənməyə yalnız sadəlövhlər inana bilər.**

# İkinci Qarabağ savaşı: Qərb Azərbaycanın qərarına "yes" deyəcəkmi?

## Elxan Şahinoğlu: "Qərb boru xətlərinin qorunmasında Azərbaycana dəstək vermək məcburiyyətində qalacaq"



Bu mənada Azərbaycanın öz torpaqlarını hərbi yolla azad etmək istiqamətində hərtərəfli hazırlıqları son zamanlar müharibə ajiotajını artırıb.

"Qərb Qarabağın Bakıya qaytarılması ilə heç bir halda razılaşmayacaq. Britaniya artıq Qarabağ administrasiyasına zəmanət verib ki, onların suverenliyi bir neçə lider ölkə tərəfindən tanınacaq". Bu sensasiyalı sözləri axar.az-a açıqlamasında rusiyalı **politoloq Qriqori Trofimçuk** söyləyib. Onun sözlərinə görə, Ermənistana Rusiya tərəfindən verilən kredit regiondakı qüvvələr balansını dəyişməyəcək: "Ermənistan hakimiyyətinin *(həmçinin Rusiya da -red.)* erməni probleminə lazım olan həll variantını tapa bilməməsi çox pisdir. Ən ciddi siyasi səhv hər şeyin öz-özünə dağılıb gedəcəyini düşünməkdir. Bu gün onlar dağılsalar, sabah yenidən toplaşacaqlar. Ermənistan müxalifəti və onun arxasında dayanan professional fikir sahibləri özlərinin gələcək fəaliyyəti üçün mümkün sxemləri hazırlayırlar. Moskva Kiyevə münasibətdə edilən eyni səhvləri yenidən buraxır. Pullar, kreditlər, tranşlarla bu cür alovu söndürmək faydasızdır. Burada ideya lazımdır. Lakin görünür, burada sadəcə məmurların standart reaksiyasından başqa heç nə görünmür. Əgər Ermənistanı silkələsələr, Qarabağ məsələsi avtomatik olaraq yenidən qalxacaq. Bunu xüsusilə vurğulamaq istəyirəm ki, əgər bu, gələcəkdə ən pis ssenari istiqamətində inkişaf etsə, o zaman müharibə variantı reallaşacaq. Qarabağ ilk növbədə qorxulası məqamdır. Bununla belə, Qərb Qarabağın Bakıya qaytarılmasına heç bir halda razılaşmayacaq. Britaniya artıq Qarabağ administrasiyasına zəmanət verib ki, onların suverenliyi bir neçə lider ölkə tərəfindən tanınacaq. Əgər Ermənistan verilən kredit hesabına əlavə və daha müasir silah alsa belə, bu, regiondakı qüvvələr balansını dəyişməyəcək. Birincisi, bu məbləğ o qədər də böyük deyil, ikincisi isə onların hamısının tam miqdarda silah alışına xərclənəcəyi də şübhəlidir. Ermənistan gərək pulu sosial istiqamətdə istifadə etsin. İrəvanda Rusiyaya qarşı şüarlar yalnız ən son halda - ölkədəki situasiya tam destabilizasiyaya uğrayanda olacaq. Lakin hələlik erməni müxalifəti bunu səsləndirməməyə çalışır".

**Politoloq Hikmət Hacızadə** deyir ki, əslində Qərb də hərbi münaqişə istəmir: "Hərbi münaqişə onun biznesinə və strateji maraqlarına uyğun gəlmir. Amma Qərbin Rusiyadan fərqi o olacaq ki, rus üstümüzə təyyarə-filan göndərəcək, Qərb isə bəyanatlar". H.Hacızadə Rusiya kimi Qərbin də münaqişənin birdəfəlik həllinə maraqlı olmadığı fikri ilə razılaşmır: "Yox, Qərb münaqişənin birdəfəlik həllində maraqlıdır. Ancaq belə sülh Azərbaycanı və Ermənistanı qane etməlidir. Belə sülh formulası hələ ki yoxdur".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu**nun fikrincə, Qərbin Dağlıq Qarabağda başlaya biləcək müharibəyə təsirləri böyük deyil: "1990-cı illərin əvvəllərində Dağlıq Qarabağda müharibə getdikdə Qərb bu prosesə müdaxilə edə bilmirdi. Rusiya müharibədə qarşıduran tərəflərlə fərqli şəkildə işləyirdi, bəzən öz maraqları çərçivəsində müharibənin nəticələrinə təsir edirdi, Qərbin isə Azərbaycan və Ermənistanla bu cür təsir imkanları yox idi. Əksinə, Amerika Birləşmiş Ştatları o zaman işğalçı Ermənistanı xəbərdar etmək əvəzinə Azərbaycanı cəzalandırdı, Konqres 907-ci düzəlişi qəbul etdi. Bölgəni tanımayan qərblidə belə bir yanlış təəssürat yarana bilərdi ki, Azərbaycan heç nədən Ermənistanı mühasirədə saxlayır, halbuki bunun səbəbi qonşu dövlətin işğalçılığı idi. Ancaq o illər müharibənin başlamasına rəvac verən bu amil amerikalı konqresmenləri və Ağ Evi az narahat edirdi. Atəşkəs imzalanandan sonra Ağ Ev Bakı ilə dostlaşdı, strateji münasibətlər quruldu, "əsrin kontraktı" imzalandı, buna rəğmən, Konqresin 907-ci düzəlişi qüvvədən düşmədi. Məncə, amerikalıların və avropalıların düşüncəsində dəyişən çox şey yoxdur. Biz bu gün torpaqlarımızı güc yoluyla azad etməyə başlasaq, ermənilər yenə elə haray-həşir salacaqlar ki, Vaşinqton və Brüsseldə müəyyən mərkəzlər yenə də Azərbaycanı cəzalandırmaq həvəsinə düşəcəklər". **Ancaq E.Şahinoğlu deyir ki, bu halda da onlar prosesə təsir edə bilməyəcəklər:** "Çünki atəşkəsin mövcud olduğu 22 ildə biz Qərb siyasi dairələrinə və ictimaiyyətinə müəyyən qədər anlada bildik ki, bizim torpaqlar işğal altındadır və sözdə onlar bizim bu torpaqlardakı hüququmuzu tanıyırlar. Ancaq bu o demək deyil ki, əməldə bunu reallaşdırmağa çalışsaq, ABŞ və Avropa böyük ehtimalla seyrçi qalacaq, Azərbaycanı müharibədən çəkindirmək üçün hansısa alətlərini işə salmayacaq. Azərbaycanın Qərbi təsirlərini azaltmaq üçün əlində güclü alətləri var. Birinci alət Ukraynadır. Qərb Ukraynanın şərqindəki separatçılığı pisləyir. Donbasdakı separatçıların isə Dağlıq Qarabağ separatçılarından fərqi yoxdur. Ona görə də əgər Qərbdə kimsə Dağlıq Qarabağdakı separatçılara dəstək vermək istəsə, onlara Donbas separatçılarına qarşı Kiyevə verdikləri dəstəyi xatırlatmalı olacağıq. Bu məsələdə ikili standart ola bilməz. İkincisi, Azərbaycanın Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan kimi strateji müttəfiqləri var ki, bu dövlətlər Azərbaycanın öz torpaqlarını istənilən yolla azad etməsi hüququnu tanıyırlar, Ermənistanı işğalçı dövlət sayırlar. Bu mənada ABŞ və ya Avropa Birliyi Azərbaycana təzyiq etmək istəsə qarşısında strateji müttəfiqlərimizi görəcək. Əlimizdə var olan üçüncü amil enerji layihələridir. Azərbaycan dünya üçün alternativ enerji mənbəyi rolunu oynayır və bunda həm Vaşinqton, həm də Brüssel maraqlıdırlar. Buna görə də Qərb Dağlıq Qarabağdakı müharibəyə görə Azərbaycana təzyiq etmədən öncə, bunun özünün enerji maraqlarına da mənfi təsirini əvvəlcədən düşünməlidir. Çünki müharibə başlayacağı təqdirdə işğalçı dövlət və onun arxasında dayanan Rusiya boru xətlərimizi təhlükə yaradacaq. Qərb boru xətlərinin qorunmasında Azərbaycana dəstək vermək məcburiyyətində qalacaq".

❑ E.PAŞASOY

# Kim yatmış, kim oyaq?



**Hüseynbala SƏLİMOV**

**Adam fikirləşir ki, yayda dincəlmək imkanı olanlar yalnız bizim deputatlarımızdır. Çətin ki, bu yay Yunanıstan baş nazirinin və yaxud da deputatlarının gözünə yuxu getsin...**

Güman ki, Ukraynada da rahat yata bilməyəcəklər, çünki yay ayları hərbi əməliyyatlar üçün ən uğurlu aylar olur və yəqin separatçılar bu fürsəti, necə deyərlər, qaçırmayacaqlar, hərçənd ki, son vaxtlar iri miqyaslı hərbi əməliyyatlar müşahidə olunmur...

S.Sarkisyanın da yuxuları ərşə çəkilib. Etirazçıları bu dəfə qovmaq mümkün olsa da, təminat yoxdur ki, onlar sabah toplaşmayacaqlar...

Qərəz, problemlər yay-qış bilmir, harada yaxaladı, vay halına... Yalnız bizim deputatlar hələ də mışıl-mışıl yatırlar. Ona görə də adamın könlündən lap deputat olmaq keçir!..

Halbuki əslində bu yay onların da yuxusu ərşə çəkilməli idi. Ona görə ki, guya bu il onlar təzədən seçilməlidirlər...

Amma yəqin deputatların siyahısı artıq hazır olar. Əslində bunlar da ilkin, necə deyərlər, partiya siyahıları olmalı idi. Amma bizdə ilkin-filan yoxdur və siyahını bir dəfə tuturlar-kim bu siyahıya düşmədisə özündən küssün...

Bu yerdə yadıma bu günlərdə baş vermiş bir hadisə düşür. Yata bilmirdim. Özü-özümə düşünürdüm ki, İlahi, bu nə işdir biz düşdük? Görən, heç başqa yerdə bu cür şeylər olurmu?..

Bunları fikirləşə-fikirləşə, divanda o tərəf-bu tərəfə çevrilə-çevrilə elə hey kanalları ora-bura dəyişirdim. Axırda bir rus kanalının üzərində dayandım. Orta Asiya filmi verirdilər. Dedim ki, birdən Ç.Aytmatovdan nəsə olar... Nə gizlədim? Onun əsərlərini həddindən çox sevirəm...

Qərəz, bir az baxandan sonra gördüm, yox, bu, heç də Aytmatov-filan deyil. Aradakı müəllif mətnindən başa düşdüm ki, film Nursultan Nazarbayev, bəli, Qazaxıstanın prezidenti haqqındadır...

Bir film qurtardı, onun davamı başladı. Ortadakı xəbərlər proqramından belə başa düşdüm ki, sən demə, o gün N.Nazarbayevin ad günü imiş. Halbuki bu, rəsmi olaraq "paytaxt günü" adlanır...

Qərəz, az qala hər şey bizdəki kimidir... Bircə fəqrlə ki, bizdə böyük tortlar bişirilir, orada isə nəhəng tiyanlarda qazaxların milli yeməyini-"beş barmaq" bişirmişdilər və bu dəfə bunun üçün düz yeddi yüz kiloqramdan artıq ət sərf etmişdilər...

Qərəz, filmlərin hər ikisinə də baxdım. İkincisinin adı lap maraqlı idi-"Liderin yolu" adlanırdı...

Yadıma uşaqlıqdan bir detal düşdü. Biz uşaq olanda kitabxanalardan İ.Stalinin bütün əsərlərini, onun haqqında olan kitabları tamam yığışdırmışdılar. Fəqət, bir dəfə əlimə köhnə bir kitab keçdi. İ.Stalinin qısa bioqrafiyası idi. O kitabda hər bir fəsil bir dövrə həsr olunmuşdu... Fəsil bitəndə onun xülasəsi gəlirdi və o xülasələrdə xüsusi olaraq qeyd edilirdi ki, xalqımız bütün bu uğurları yoldaş İ.Stalinin sayəsində qazanıb...

N.Nazarbayev haqqındakı film də bu ruhda idi. Sən demə, onun rəsmi titulu da varmış. Ölkədə ona Elbaşı deyirlərmiş. Burada etiraf edim ki, S.Niyazova lap yazığım gəldi. Əslində o kişinin adı çıxıbmış, elə o birilər də rəsmi və ya qeyri-rəsmi şəkildə özlərinə titul yapışdırıblarmış...

Bunları niyə xatırladım? Sanki tale eyni ssenarilə müxtəlif xalqların boyuna avtoritar liderlər biçib. Onların hamısının missiyası xilaskarlıqdır, hərçənd ki, bu adamların bizi kimdən və necə xilas etməsi o qədər də aydın deyil. Bunun məğzi yalnız onlara aydındır, çünki biz böyük siyasətdən qıraq olduğumuzdan oralarda nə baş verdiyindən xəbərimiz olmaz...

İndi mən də fikirləşib tapmaq istəyirdim ki, görən, mənim deputatım kim olacaq və hətta daxili hissim məni bir az da şirnikləndirirdi, ruslar demişkən, lap "provakasiya"ya çəkirdi ki, elə sənin özündən də pis deputat çıxmaz...

Amma ağlım deyir ki, yox, xam xəyallara düşmə, yaxşısı budur, bizim deputatlarımız kimi sən də yat, sənin əvəzinə hər şeyi edəcəklər-depuatat da seçəcəklər, parlament də quracaqlar...

Ona görə də çalışıram belə hissləri, "qara" fikirləri özümdən qovum. Özümün ağrımayan başıma niyə dəsmal bağlayım? Parlament nə olan şeydir ki? Bircə günün içində təyin edəcəklər qurtarıb gedəcək...

**Ona görə də televizoru söndürüb yatmaq qərarına gəldim. Amma elə bil kimsə qulağıma pıçıldayırdı ki, bu ölkədə kim yatmış, kim oyaq?..**

YENİ MÜSAVAT
N 148 (6176) 9 iyul 2015




# "Suriyada 1000-ə yaxın azərbaycanlı vuruşur"

## Ərəstun Oruclu: "Bu, Azərbaycan üçün ciddi təhdiddir, onların ölkəyə dönməsi təhlükəlidir"

**İraqın Mosul şəhərindəki dini liderlərdən biri İslam Dövləti yaraqlılarının 2015-ci il büdcəsinin 2 milyard dollar olduğunu ortaya çıxarıb. Bunu Londonda mənzillənən "al-Arabiy al Jadeed" saytı yazır. (azadlıq.org)**

Amma bu yaraqlı qrupun büdcəsi haqqında daha böyük rəqəmlər də səslənir. Onların maliyyə qaynaqları haqqında da cürbəcür məlumatlar var. Bu qrupu müxtəlif ərəb ölkələrinin maliyələşdirdiyi, onların zəbt etdikləri ərazilərdən qanunsuz neft satışı, adam oğurluğu kimi yollarla pul qazandığı haqqında xəbərlər var.

Məsələn, BMT-də Al-Qaeda-ya qarşı sanksiyaların monitorinqini aparan ekspert, Yotsna Lalji 2014-cü ildəki açıqlamasında deyib ki, İslam Dövləti yaraqlı qrupu təkcə adam oğurluğundan 2013-cü ildə 35-45 milyon dollar qazanıb.

İslam Dövləti yaraqlı qrupu təkcə adam oğurluğundan ilə 35-45 milyon dollar qazanıb. İslam Dövləti Suriya və İraqın bir hissəsini nəzarət altına alan və bütün dünyada terrorçu qrup kimi tanınan Sələfi baxışlı silahlı qrupun adıdır. Stanford Universitetinin araşdırmasına görə, qruplaşmanın yaranma kökləri 2000-ci ilə gedib çıxır. Həmin dövrdə Abu Musab al-Zarqavi adlı şəxs ekstremist döyüşçülər hazırlamağa başlayıb.

Zarqavi-nin döyüşçüləri Amerikanın İraqdakı hərbi əməliyyatları dövründə "Jama'at al-Tavhid va'al-Jihad", yəni "Töhvid və Cihad" adı altında fəaliyyət göstərən qrupun aparıcı üzvlərindən olublar. Daha sonra İraqda "əl Qaidə"yə sədaqət andı içiblər.

Araşdırmada deyilir ki, qruplaşma 2013-cü ildə adını dəyişərək özünü "İraq Şam İslam Dövləti" adlandırıb. Daha sonra özünü İslam Dövləti adı ilə təqdim etməyə başlayıb.

**Bu silahlı qrup 2013-2014-cü illərdə Suriya və İraqın ərazilərinin bir qismini ələ keçirib. Qədim şəhərlərə hücum edib, tarixi abidələri dağıdıb.**

Qrup həm də ən qəddar cəza növləri ilə beynəlxalq medianın gündəmində qalmağa çalışır. Onlar gah əsirləri yandıraraq, gah da azyaşlıları adam öldürməyə məcbur edərək videoya çəkib sosial şəbəkələrdə yayırlar.

Qruplaşmanın sıralarında müxtəlif ölkələrdən, o cümlədən Azərbaycandan radikal islamçı qruplar var.

İnternetdə Suriyada vuruşan azərbaycanlılarla bağlı bir çox videolar yer alsa da, son 2 ildə Suriyada döyüşməyə gedən azərbaycanlılar məsələsi ölkənin özündə bir neçə dəfə medianın gündəminə gəlib. Hazırda bu yaraqlıların tərkibində vuruşmaq ittihamı ilə bir qrup azərbaycanlı məhkəmə qarşısına çıxarılıb. Günahları sübut olunsa, onlar uzunmüddətli azadlıqdan məhrumetmə cəzası ala bilərlər.

Suriyaya vuruşmağa gedən azərbaycanlıların sayına gəldikdə isə yerli mediada indiyə qədər müxtəlif rəqəmlər deyilir. Rəqəmlər 60-la 270 arasında dəyişir.

**Şərq-Qərb Araşdırmaları mərkəzinin rəhbəri Ərəstun Oruclu** isə bu rəqəmin 600-ü keçdiyini bildirir: "Bu rəqəm 600-lə 1000 arasında dəyişir. Bu, Azərbaycan üçün ciddi rəqəmdir. Dünya ölkələrində müsəlmanların sayı bir milyard yarımdır. Belə insanların ölkəyə dönməsi təhlükəlidir. Terrorçu şəbəkələrlə əlaqəsi olacaq, silah-sursata çıxışı olacaq. Həmin şəraitdə olan insanlar Azərbaycan cəmiyyətini də bugünkü durumda qəbul etmək fikrində deyillər. Azərbaycan əhalisi bunun 0.69 faizini təşkil edir. Suriya və İraqdakı muzdlu döyüşçülərin arasında isə azərbaycanlıların sayı 1.5 faizdən çoxdur. Bu, Azərbaycan üçün ciddi təhdiddir. Belə insanların ölkəyə dönməsi təhlükəlidir. Ter-



rorçu şəbəkələrlə əlaqəsi olacaq, silah-sursata çıxışı olacaq. Həmin şəraitdə olan insanlar Azərbaycan cəmiyyətini də bugünkü durumda qəbul etmək fikrində deyillər".

Kremlin Şimali Qafqaz Federal Dairəsindəki nümayəndəsi Sergei Melikov iddia edir ki, Şimali Qafqazdan olan 1500-dən çox şəxs Suriya və İraqda İslam Dövləti yaraqlıları sıralarında vuruşur.

2014-cü ilin payızından İslam Dövləti qruplaşmasına qarşı beynəlxalq koalisiya yaradılıb və ABŞ hava qüvvələri onlara hava zərbələri endirir.

**Prezident Barak Obama bazar ertəsi - iyulun 6-da bu qrupa qarşı hərbi əməliyyatları yenilənməyi təklif edib. O, İraqda, Suriyada və Şimali Afrikadakı yeni regionlarda yaraqlıların mövqelərinə indiyədək 5000-dən çox hava zərbələri endirildiyini vurğulayıb.**




# AXCP-nin sabiq şöbə müdirindən ittihamlara cavab gəldi - "Həbs olunsun"

## Ağaşirin Tanrıverdioğlu şikayətinə baxılmamasından şikayətlənir; "Onun arxasında duran qüvvələrin anonsunu vermişəm"

**"Yeni Müsavat"ın 6 iyul sayında AXCP-dən çıxarılan Nərimanov təşkilatının sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlunun geniş müsahibəsi dərc olunmuşdu. Müsahibədə sabiq şöbə müdiri partiyanın Rəyasət Heyətinin üzvü Sahib Kərimli tərəfindən döyülməsi ilə bağlı onun ünvanına ağır ittihamlar səsləndirmişdi.**

Sahib Kərimli də öz növbəsində facebookda paylaşdığı statusda ittihamlara sərt cavab vermişdi. O, A.Tanrıverdioğludan istifadə edildiyini bildirmişdi: "Heç kim məni əqidəmə və prinsiplərimə xəyanətlə bağlı ittiham edə bilməz! Mənim üzərimdə böyük oyun oynanılır, bu oyunu pozacam.

Qəzetdə səslənən ittihamların, aşağıda sadaladığım iki fakt qarşısında yox olduğunu görməmək yalnız qərəzin əlaməti ola bilər:

**1.** Ağaşirinlə separat əlaqəyə girmişdimsə, nədən 4 aydır məndən yalvarışla kömək istəyirdi? (Keçən statusumda paylaşdığım mesajları son 4 ayı əhatə edir. ) Belə xarakterli adam niyə məni şantaj etmirdi?

**2.** Suraxanıdan çıxarılan cəbhəçilərlə bağlı məsələ RH - də müzakirə olunan gün mən səhhətimlə bağlı iclasa gəlmirdim. Həmin gənclərdən biri Cavid Musazadə məndən xahiş etdi ki, rayon şöbəsi məclisinin qərarı var, RH başlayıb, bu qərarın surətini ora çatdırmaq lazımdır. Cavid bəy yəqin ki bu faktı təsdiqləyəcək.

Ağaşirin aylardır "Yeni Müsavat"a müsahibələr verir və partiya rəhbərliyində, demək olar ki, hamını hakimiyyətlə əlaqədə ittiham edir. İndi növbə mənə çatıb. Burdan bir daha deyirəm ki, kimin əlində nə faktı var açıqlasın. Bu hakimiyyət görün nə vəziyyətdədir ki, siyasi rəqibləri ilə mübarizədə, rəqib qurumlarda təxribat törətmək üçün Ağaşirindən istifadə edir".

**S.Kərimlinin iddialarına sabiq şöbə müdirinin münasibətini öyrəndik. O, ittihamları əsassız saydı:** "Onun dediklərinin hamısı ağ yalandır. Təbii ki, mətbuat olaraq onun fikirlərinə də yer ayırmaq sizlərin işidir. O müsahibəni verməklə özünü təmizə çıxarmaq istəyir. Götürdüyü öhdəlikləri yerinə yetirə bilmədiyi üçün Sahib hər varianta getməyə hazırdır. Artıq o, ehtimalları doğrultmayıb. Hakimiyyət qarşısında



götürdüyü öhdəlikləri həyata keçirə bilməyib. Ortada özündən başqa iki nəfər qalıb. Ağır duruma düşdüyünü özü yaxşı bilir. Sahib birbaşa gedən oyunların içərisindədir. Partiyanı parçalamaq, rəhbər olmaq üçün öhdəlik götürüb. Bu gün onun ağlına bələd olanlar, artıq Sahibin yanında deyillər. Yalnız Rafiq Daşdəmirli və Arzuman Məcidli dayanıblar. Onlar da 3-5 manata görə. Böyük oyunlara girdiklərinə görə, qaça da bilmirlər".

**A.Tanrıverdioğlu Sahib Kərimlinin ona kömək etməsi barədə iddialarına belə cavab verdi:** "Bir dəfə Sahibdən kirayə haqqı olaraq, 100 manat kömək istəmişəm. O da 50 manat verib. Kişiliyi-mənliyi varsa, etiraf etsin. O pulların əvəzini ona 10 dəfə qaytarmışam. Sahib həbsdə olanda, Ramiz Kamal şahiddir, hər həftə onun yanına gedilib. Xeyli pullar xərcləmişəm. Heç zaman bunları dilimə gətirməmişəm. Sahibdən fərqli olaraq. Mənim də Sahibə stol açdığım günlər olub. İctimai Palatanın dövründə. Onu təsdiq edə biləcək insanlar var. Kişi elədiyini deməz. Bu, ancaq Sahibə məxsusdur. O nazir, biznesmen deyil. Ağzını açanda deyir ki, hər kəsə kömək edirəm. Mənim də kömək istədiyimi deyir. Bu pullar onda hardandır? Sahib türmədən çıxandan sonra pulu olmayıb. Hamı ona dəstək olub. Birdən-birə pullar haradan çıxdı? Demək, ona kənardan dəstək var. Bu gün həbsxanalarda olan müxalifətçilər şər-böhtanla cəza çəkirlər. Sərdar Əlibəyli, Seymur Həzi və başqaları heç nə olmadan həbsə getdilər. Amma Sahib cinayət törədə-törədə azadlıqda gəzir. Niyə? O, buna aydınlıq gətirsin. Camaat cinayət etməyə-etməyə həbsə salınır. Bunlar onu göstərir ki, Sahibin arxasında yüksək çinli məmurlar dayanır. Bunu deməyə mən də əsas var. Prezidentə, DİN və MTN-ə müraciət etmişəm. Sahibin arxasında duran qüvvələrin anonsunu vermişəm. Yaxın günlərdə açıqlayacam. Onun getdiyi əqidə yolu tapşırıqladır. Polislər hadisə yerinə baxış keçiriblər. Amma deyim ki, şikayətimə baxılmır. Bunun da səbəbi Sahibin arxasında duran qüvvələrdir. Cinayətkar çöldədirsə, demək şikayətə baxılmır. Müraciətlərim davam edir. Onun çöldə qalması həyatım üçün təhlükədir. Kimsə zamin dura bilməz ki, Sahib bir daha belə hərəkət etməyəcək. O cəzalanmadıqca, narahat olacam. Cinayətkar cəzasız qalmamalıdır".

❑ **Cavanşir ABBASLI**

# Ramazan bayramına görə 4 gün iş olmayacaq

**Azərbaycanın məşğul vətəndaşları 4 gün işə getməyəcəklər. ANS PRESS-in məlumatına görə, Ramazan bayramı ilə əlaqədar dörd gün qeyri-iş günü sayılacaq. Nazirlər Kabinetindən bildirilib ki, hökumət tərəfindən 2014-cü il noyabrın 21-də "2015-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" qərar qəbul edilib. Qərara əsasən, iyulun 17-si və 18-i Azərbaycanda Ramazan bayramı qeyd olunacaq.**

Azərbaycan qanunvericiliyinə, xüsusən Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq, bayram günü istirahət günlərinə təsadüf etdikdə, növbəti həftənin ilk iş günləri istirahət günü hesab olunur. Ramazan bayramının ikinci günü -18 iyul şənbə gününə təsadüf etdiyindən Əmək Məcəlləsinə əsasən, iş və istirahət günlərinin yerləri dəyişdiriləcək, 20 iyul qeyri-iş günü olacaq. Beləliklə, işləyənlər Ramazan bayramı münasibətilə ardıcıl 4 gün -iyulun 17-si, 18-i, 19-u (bazar) və 20-si istirahət edəcəklər.

**Xatırladaq ki, ötən il isə Ramazan bayramı ilə əlaqədar Azərbaycanda rəsmi iki gün iş günü olmayıb. Belə ki, ötən il Ramazan bayramı iyulun 28-29-na təsadüf edib. İyul ayının 26 və 27-si isə həftəsonuna düşüb. İyulun 28 və 29-u həftənin bazar ertəsi və çərşənbə axşamı günlərinə təsadüf etdiyindən ölkə ərazisində 4 gün qeyri-iş günü olub.**

# “Mətbuat bu problemlərin həllini gözləyir”

## “Yeni Müsavat”ın baş direktoru Ələsgər Süleymanov təkliflər verdi

**Bu günlərdə mətbuatın 140 illik yubileyi keçiriləcək. Artıq yubiley tədbiri çərçivəsində regionlarda media adına görüşlər, tədbirlər düzənlənir. Paytaxtda isə yubiley münasibətilə jurnalistlərə fəxri adların veriləcəyi ilə bağlı təlaş müşahidə olunur. Redaksiyalar öz namizədlərini müəyyənləşdirərək, Mətbuat Şurasına yollayıblar, nəticələr gözlənilir.**

Jurnalistlər üçün nəzərdə tutulan ikinci binanın inşası isə hələ davam edir və bu dəfə olmasa da, ilin sonuna qədər onun da sahiblərinə çatdırılacağı gözlənilir. Amma media sektorunda davam edən müzakirələr göstərir ki, çap mətbuatında həllini gözləyən xeyli problem var. Onların bu bayram ərəfəsində həll olunması sektorun ümumi inkişafı üçün ciddi addım sayıla bilər.

**“Yeni Müsavat”ın baş direktoru Ələsgər Süleymanov** bizə açıqlamasında medianın qarşısında dayanan problemlərdən danışdı. Onun fikrincə, 140 illik tarixi olan media üçün bunların zamanında həlli gələcəyə yönəlik kapital ola bilər. Bu halda daha güclü, mobil və perspektivli mediadan danışa bilərik. Müsahibimiz öncə xatırlatdı ki, jurnalistlərə ev verilməsi təqdirəlayiq addımdır: “Davamının gəlməsini arzu edirik. Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması və fəaliyyətini təqdirəlayiq qiymətləndirən müsahibimiz Fonddan yeni-daha səmərəli təkliflər gözlədiklərini bildirdi. Bu təkliflər medianın özünün pul qazana bilməsinə istiqamətlənməlidir. Bəzi həllini gözləyən, həlli arzu olunan problemlər var ki, onlar da yoluna qoyulsa, Azərbaycan mediası daha etibarlı inkişaf yolunu tutar. Mənim verəcəyim təkliflərlə bağlı hansısa ölkənin təcrübəsi olmaya bilər. Nəzərə almaq lazımdır ki, jurnalistlərə mənzil verilməsi də başqa ölkələrin təcrübəsində yox idi. Amma bununla evsiz jurnalistlər probleminin həllində necə böyük bir addım atıldı. İndiki halda da bəzi məsələlərdə Azərbaycan presedent (əmsal) yaratmış olar”.



**Ə.Süleymanov Azərbaycan mətbuatının bugünkü mənzərəsini təhlil edərkən həllini gözləyən problemləri aşağıdakı qaydada sıraladı:**

**1.** İctimai nəqliyyatda güzəştlər və ya hər redaksiyadan siyahılar əsasında reportyorlar üçün şəhərdaxili ictimai nəqliyyatdan pulsuz istifadə kartlarının verilməsi. Bu maddi imkanları onsuz da zəif olan reportyor kəsiminin hadisənin üzərinə daha ürəklə və operativ getməsinə yardımçı olar;

**2.** Yayımda problemlərin aradan qaldırılması, yeni qoyulan köşklərdə əsasən üstünlüyün qəzetlərin satışına verilməsi. Bu köşklərdə qəzetlərin yerləşdirilməsinə və satışına ciddi nəzarətin həyata keçirilməsi, iş saatlarının ciddi qrafikə salınması vacibdir;

**3.** Ən vacib olan məsələ metroda və şəhərin əhali çox olan yerlərində-parklarda, mərkəzi küçələrdə qəzet satışının təşkil olunmasıdır. Normal görünüşlü səyyar satışın təşkil olunması. Yeri gəlmişkən bir vaxtlar bu məhdudiyyətlər qoyulanda bunun I Avropa Oyunları ilə əlaqələndirmişdilər. Artıq bu oyunlar da başa çatıb. Arzu olunardır ki, metroda və digər yerlərdə dövrü mətbuat və kitab satışı bərpa edilsin;

**4.** Sosial və ictimai əhəmiyyətli reklamların bölgüsündə ayrıseçkiliyin aradan qaldırılması, ədalətli bölgünün təmin olunması vacib şərtlərdən biridir. Reklamsız mətbuat yaşaya bilməz;

**5.** Digər bir təklif redaksiyaların büdcəyə illərdir yığılıb qalan vergi və sosial müdafiə borclarının dövlət hesabına ödənilməsidir. Bu, həm redaksiyaların asılılığını azaldar, eyni zamanda da bundan sonra borc yığmamaq üçün bir stimul yaradar. Həmçinin jurnalistlərin gələcəkdə təqaüdlərinin hesablanmasında yarana biləcək problemlərin qarşısını alar. Oxşar addım ötən illərdə atılıb və mərhum prezident Heydər Əliyev tərəfindən redaksiyaların “Azərbaycan” nəşriyyatına olan borcları silinib. Bu hadisə demək olar ki, Azərbaycan çap mediasının ölü nöqtədən hərəkətə gətirilməsi kimi bir effekt vermişdi zamanında;

6. Muzeylərə, mədəniyyət və idman tədbirlərinə redaksiyaların siyahısı əsasında, hər əməkdaşın öz profilinə uyğun buraxılış vəsiqələrinin verilməsi. Bu həmin tədbirlərin işıqlandırılması, həm də konkret sahələr üzrə çalışan jurnalistlərin məlumat bazasını zənginləşdirməsi baxımından səmərəli olar.

Ə.Süleymanov hesab edir ki, sadalanan təkliflər jurnalistlərin səmərəli iş fəaliyyəti, medianın inkişafı üçün fayda verə bilər. Müsahibimiz bu təklifləri qəzet vasitəsilə aidiyyəti qurumların diqqətinə çatdırılmasını xahiş etdi. Baş direktor ümid edir ki, təklifləri medianın inkişafında maraqlı olan dövlət qurumları tərəfindən diqqətsiz qalmayacaq.

❑ **Sevinc TELMANQIZI**



# “Dağlıq Qarabağa səfər üçün Azərbaycan hökumətindən icazə almaq lazımdır”

## Polad Bülbüloğlu: “Lyubov Kazarnovskaya Dağlıq Qarabağa səfər etməklə bütün beynəlxalq normaları pozub”

**“Azərbaycan Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərə səfər etmək istəyən xarici vətəndaşlara birmənalı şəkildə bəyan edib ki, işğalın davam etdirilməsi ilə əlaqədar yuxarıda sadalanan və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın bir hissəsi kimi tanınan ərazilərə Azərbaycanın razılığı olmadan səfər etmək Azərbaycanın ərazi bütövlüyünü tanımamaq, milli qanunvericiliyi, beynəlxalq hüququn norma və prinsiplərinin pozulması kimi qiymətləndirilir”.**

Azərbaycanın Rusiyadakı səfirliyindən APA-ya verilən məlumata görə, bu barədə səfir Polad Bülbüloğlunun rusiyalı opera müğənnisi Lyubov Kazarnovskayanın Dağlıq Qarabağa səfəri ilə əlaqədar bəyanatında deyilir.

**Səfir qeyd edib ki, Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, işğal olunmuş ərazilərə qanunsuz səfər etmiş şəxslərin Azərbaycan ərazisinə daxil olması qadağan ediləcək:** “Hesab edirəm ki, Rusiya vətəndaşı olan Lyubov Kazarnovskaya Rusiya Xarici İşlər Nazirliyinin konsuluq xəbərləri portalında yerləşən xəbərdarlığa diqqətlə yanaşmalı idi. Məlumdur ki, yaradıcı insanlar fəaliyyət göstərdiyi dövr ərzində maddi mükafatlar alırlar. Aydındır ki, xanım Kazarnovskayanın bu səfər üçün müəyyən şəxsi stimulu olub. Lakin bu fakt jurnalist, həkim, pedaqoq, idmançı, səhnə və ya efir adamı olmasından asılı olmayaraq hər kəsin əməl etməyə məcbur olduğu və universal xarakter daşıyan qanunu pozmaq məsuliyyətini üzərindən götürmür. Lyubov Kazarnovskayanın yaradıcılığına böyük hörmətlə yanaşaraq xatırlatmaq istərdim ki, o, işğal olunmuş ərazilərə səfər etməklə və sonra KİV-ə verdiyi açıqlamalarla Azərbaycanın silahlı təcavüz, etnik təmizləmə, dinc əhalinin öldürülməsi, Azərbaycan zəngin mədəniyyətinin və musiqi irsinin məhv edilməsi nəticəsində işğal olunmuş torpaqlarında yaradılan qanunsuz rejimin vəkili qismində çıxış etməş olub.

O da aydındır ki, öz bəyanatları ilə o, ixtiyari və ya qeyri-ixtiyari Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri təbliğ etməyə xidmət edib. Bununla yanaşı o, Azərbaycanın işğal olunmuş ərazilərinin silahlı münaqişə zonası olduğunu qeyd etməyib. Demək olar ki, hər gün bu ərazidə intensiv atışmalar olur, snayper atışları baş verir, ölümlə nəticələnən mina partlayışları baş verir. Bütün bu amillər bu qədər ciddi risklər qarşısında bu əraziyə səfərlərlə bağlı təbliğatın qəbuledilməz olduğunu şərtləndirir, bunları görməzdən gəlmək isə Lyubov Kazarnovskayanın fikrinə inanan böyük bir auditoriyanı qəsdən ölümcül təhlükəyə uğratmaqdır. Lyubov Kazarnovskaya bu səfəri həyata keçirməklə, onun Azərbaycan tərəfindən “qara siyahı”ya salınması məsələsinə görə birbaşa özü məsuliyyət daşıyır. Eyni zamanda bir daha Rusiya vətəndaşlarını həm hüquqi, həm də yuxarıdakıları nəzərə alaraq ölümcül nəticələrə gətirib çıxara biləcək bu kimi səhvləri etməkdən çəkinməyə çağırıram".

“Qondarma ”Dağlıq Qarabağ Respublikası"na səfər etməklə rusiyalı opera müğənnisi Lyubov Kazarnovskaya bütün mövcud beynəlxalq normaları pozub".

Bu sözləri Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu TASS-a açıqlamasında deyib.

Səfir sənətçinin Azərbaycan Xarici İşlər Nazirliyinin “arzuolunmaz şəxslər” siyahısına daxil edilməsinə də toxunub: “Azərbaycan hökumətinin sənətinə hörmət etdiyimiz Lyubov Kazarnovskaya ilə bağlı bu addımı onunla əlaqədardır ki, o, Dağlıq Qarabağa getməklə bütün mövcud beynəlxalq normaları pozur. Bu, vəzifəsindən asılı olmayaraq hər kəsə aiddir”.

**Səfir xatırladıb ki, dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan tərəfindən tanınmamış Dağlıq Qarabağ ərazisinə səfər üçün Azərbaycan hökumətindən icazə almaq lazımdır.**

# Fəryad edən ana məhkəmə yolunda qalıb

## Vətəndaş tikinti şirkətində çalışarkən şikəst olan oğluna kəsilən kompensasiyanı ala bilmir

**Tikinti şirkətində çalışarkən təhlükəsizlik qaydaları təmin olunmadığından 8-ci mərtəbədən yıxılaraq ömürlük şikəst qalan 27 yaşlı Vüsal Qafarovun anası Almaz Hüseynli yenidən redaksiyamıza şikayət ərizəsi ilə müraciət edib.**

Almaz Hüseynli bundan önceki müraciətində bildirmişdi ki, hadisədən sonra istintaq aparılıb və şirkətin iki işçisi - iş icraçısı Məmmədov Adil Nemət oğlu və baş mühəndis Əliyev Əli Rizvan oğlu 162.1 maddə ilə ittiham olunaraq, 1 il 6 ay müddətinə islah işlərinə məhkum edilib. Bədbəxt hadisə zamanı I qrup əlil olan oğlu Vüsal Qafarovun müalicəsi üçün nəzərədə tutulan 50 min manat təzminatı isə qarşı tərəf ödəmək istəmir: “7 ildir ki, əlimizdəki vəsaitlərin hamısını oğlumun müalicəsinə xərcləmişik. Oğlum I qrup əlilədir və əmək qabiliyyətini itirib. 6 ilə yaxındır ki, kirayə evdə yaşayırıq. Bu müddət ərzində evin kirayə pulunun yalnız 3 ayını cavabdeh şirkət qarşılayıb. Bu səbəbdən də mən bir otaqlı mənzil və ya onun dəyərində pul tələbi ilə həmin şirkətə qarşı məhkəmə qarşısında 86 min manat məbləğində iddia qaldırdım. Səbayel Rayon Məhkəməsi birinci mərhələdə iddianı ləğv etdi.



Apelyasiya Məhkəməsində isə hakim iddia tələbini dəyişərək, mənzil tələbini əlavə xərclər kimi qeyd etdi, bizə ödənilən 35 min manat müayinə-müalicə xərcini 86 min manatlıq iddia tələbindən çıxdı və iddianı qismən - 50 min manat - təmin etdi. Lakin qərarın icrası zamanı məlum oldu ki, mənzil tələbi əlavə xərclər kimi qeyd olunduğundan 50 min manatdan 35 min manat əvvəl ödənilən məbləği çıxmaq istəyirlər. Mən məhkəmə terkibinin dəyişməsi ilə bağlı vəsatət qaldırdım".

**Ananın sözlərinə görə məhkəmədə dövlət tərəfindən təmin olunan vəkil işə etinasız yanaşır, məsələnin qarşı tərəfin xeyrinə həll edilməsinə maraq göstərir:** “Bu barədə artıq məhkəməyə müraciət etmişəm. 9 iyul 2015-ci tarixində keçiriləcək məhkəmədə həmin vəkilin iştirak etməməsi üçün və məhkəmənin təxirə salınması barədə ərizə ilə müraciət etmişəm. Çünki məhkəməyə qədər müddətdə həmin vəkil bir dəfə də olsun məhkəmə işi ilə maraqlanmadı. Telefon əlaqəsi saxladıqda isə mənə bildirdi ki, hələ işlə tanış deyil. Keçirilən məhkəmədə isə mənə məlum oldu ki, vəkil məsələnin qarşı tərəfin xeyrinə qərar çıxarılmasına maraq göstərir. Bütün ümidim məhkəmənin çıxaracığı qərara bağlı olduğundan 9 iyul tarixində keçiriləcək məhkəmənin təxirə salınmasını istədim. Lakin göründüyü odur ki, vəkil tərtib etdiyi protokollarda bunu mümkünsüz edib”.

**Xatırladaq ki, Almaz Hüseynlinin oğlu Vüsal Qafarov 2008-ci il iyulun 29-da “Az.İnKo” Holdinqin nəzdində fəaliyyət göstərən “Xəzər Az.Ko MTK”-da çalışarkən əmək və texniki təhlükəsizliyi təmin olunmadığı binanın 8-ci mərtəbəsindən yıxılıb. Hadisə Vüsalın bir binanın eyvanından digərinə keçməsi zamanı baş verib. Çoxsaylı xəsarətlər, ağır kəllə-beyin travması, çiyin, qabırğa və ayaqlarında çoxsaylı sınıqlarla xəstəxanaya yerləşdirilib. O, bir neçə ağır əməliyyat keçirsə də, vəziyyətində hər hansı irəliləyiş olmayıb. 27 yaşlı Vüsal Qafarovun xaricdə nəzərdə tutulan müalicəsi imkansızlıq üzündən gecikdirildiyindən o, ömürlük şikəst qalaraq yataq xəstəsi olub.**

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 148 (6176) 9 iyul 2015

# Mərkəzi Bank manatın növbəti devalvasiyasına gedə bilər

## Ekspertlər bildirirlər ki, MB həqiqəti gizlədir, bank sektorunun maliyyə göstəriciləri də şəffaf deyil...

**Fevral devalvasiyasından keçən beş aya yaxın müddətdə növbəti devalvasiya ehtimalları aktuallığını qorumaqdadır. Son aylar əmanətçilərin banklardan pulunu geri çəkməsi, həmçinin neftin qiymətində kəskin bahalaşmanın olmaması, yaxın illərdə neftin qiyməti ilə bağlı verilən bədbin proqnozlar manatın dəyərini yenidən itirəcəyi barədə müzakirələri yeniləyib. Əksər ekspertlər manatın ucuzlaşacağı barədə bədbin gözləntilər barədə müzakirə aparırlar. Yəni Mərkəzi Bank bu il növbəti devalvasiyaya gedə bilər və bunun üçün kifayət qədər səbəblər var.**

Ekspert Əkrəm Həsənovun musavat.com-a verdiyi açıqlamaya görə, manatın növbəti mümkün devalvasiyası əvvəlki kimi əsasən neftin qiyməti və hasilatının həcmindən asılıdır. Yəni ölkəyə daxil olan dolların həcmindən asılıdır. Neftin qiyməti artmır, əksinə azalır. Buna görə də növbəti devalvasiya mümkündür. Nə vaxt olacağını demək ona görə çətindir ki, bank sektorunun maliyyə göstəriciləri şəffaf deyil. Mərkəzi Bank həqiqəti gizlədir. Bu da öz növbəsində ölkədə çaşqınlıq və gərginlik yaradaraq bank sisteminə etimadı daha da azaldır və növbəti devalvasiya təhlükəsini yaradır".

O qeyd edib ki, Yunanıstan problemi Avropa Birliyini və bütövlükdə dünya iqtisadiyyatını böhrana qərq edir. Böhran zamanı neftə tələbat daha da azalır. Deməli, qiyməti yenə enə bilər. Bu da təbii ki, manata mənfi təsir göstərəcək".

**Ekspert Vüqar Bayramov** da vurğulayıb ki, milli valyutanın məzənnəsinin tezliklə stabilləşməsi mümkün deyil: "Mərkəzi Bankın valyuta ehtiyatları iyun ayının sonunda 8 milyard 520,2 milyon dollara çatıb. Bu isə o deməkdir ki, son bir ayda valyuta ehtiyatlarının həcmi 89,4 milyon dollar və ya 1 faizə yaxın artıb. Əslində artım faizi marjinal olsa belə, bankın azalan valyuta ehtiyatlarının son 2 ayda stabil qalması və müqayisəli çoxalması müsbət haldır. Çünki manatın məzənnəsi ilə bağlı ən ciddi təhlükə məhz Mərkəzi Bankın intervensiya xərclərinin artması səbəbindən ötən ilin axırlarında və bu ilin əvvəllərində valyuta ehtiyatlarında müşahidə edilən kəskin azalmalar idi. Valyuta ehtiyatlarının artması həm manata tələbin nisbətən çoxalması və xarici valyuta təklifinin azalması və bu aspektdən intervensiya xərclərində müşahidə edilən azalmalar, həm də Mərkəzi Bankın borclanması ilə bağlıdır. Mərkəzi Bank ilə bağlı qanunvericiliyə edilən son dəyişikliklər baş bankın daxili borclanma imkanlarını artırdı. Digər tərəfdən, dollarlaşma prosesinin səngiməsi və cari xərclər üçün dollar təklifinin çoxalması da valyuta ehtiyatlarının artmasına təsirsiz ötüşmür. Mərkəzi Bankın valyuta ehtiyatlarının son 2 ayda artması manatın məzənnəsinin qorunub saxlanması baxımdan arzuolunandır. Bununla yanaşı, hələlik xarici iqtisadi faktorlar xüsusən də neftin dünya bazar qiymətindəki son günlər müşahidə edilən azalmalar manatın üzərindəki gərginliyi müəyyən qədər möhkəmləndirir. Eyni zamanda, avronun dəyər itirməsi də dolların, demək olar, bütün digər valyutalar üzərində güclənməsinə səbəb olur. Təbii ki, bu psixoloji gərginliyin artmasında manatın yaxın günlərdə kəskin dəyər itirəcəyi ilə bağlı devalvasiyadan sonra, ötən 4 ayda, demək olar, hər həftə bir sıra internet portalları tərəfindən yayılan sipkulyativ məlumatlar az rol oynamır. Bütün hallarda, mövcud vəziyyətdə manat üçün "pros" və "kons"lar var. Mərkəzi Bankın valyuta ehtiyatlarının artması fonunda neftin dünya bazar qiymətində artımlar müşahidə edildiyi halda, milli valyutanın məzənnəsinin stabilləşməsi mümkün ola bilər. Neftin dünya bazar qiymətində azalmalar davam edərsə bu, daxili pul bazarında yenidən xarici valyutaya olan tələbin artmasına səbəb ola bilər".




**Ekspert Pərviz Heydərov da manatın devalvasiya ehtimalının olduğunu vurğulayıb:** "Əhalinin banklardakı əmanətləri azalmaqda davam edir. Bu ilin mart ayından başlanan bu proses iyun ayının 1-nə olan məlumata əsasən, 7 milyard 601 milyon 100 milyon manatadək gəlib çatıb. Yəni ki, Mərkəzi Bankın açıqladığı son məlumata görə, qeyd olunan tarixə ölkədə əhalinin banklardakı əmanətlərinin ümumi həcmi məhz, bu qədər təşkil edib. Düzdür, Mərkəzi Bankın açıqladığı məlumatda deyilir ki, 2015-ci ilin əvvəli ilə müqayisədə əhalinin əmanətləri 412,8 milyon manat və ya 5,7 faiz artıb. Amma bu, yalnız yanvar və fevral aylarında əldə olunub: martdan başlayaraq azalır. Və bu tendensiyanın iyun, iyul və avqust aylarında da davam edəcəyi şübhə doğurmur. Əmanətlərin azalmasında manatın dəyərinin ucuzlaşdırılması ilə yanaşı, əhalinin banklara inamlarının azalmasının, həmçinin real gəlirlərinin nisbətən məhdudlaşmasının da təsiri olub. Düzdür, azalma sürəti 1-2 faiz aralığında təşkil etməklə o qədər çox deyil. Lakin istənilən halda banklarda əmanət həcminin artmaqda deyil, azalmaqda olması bir sıra iqtisadi göstəricilər nöqteyi-nəzərindən ciddi siqnal kimi qəbul olunmalıdır. Üstəlik, o da məlumdur ki, manatın dəyərinin korrektəsindən sonra banklara əmanət cəlbini stimullaşdırmaqdan ötrü Mərkəzi Bank nəzdində fəaliyyət göstərən Əmanətlərin Sığortalanması Fondu tərəfindən bu ilin fevral ayının 24-dən etibarən qorunan əmanətlər üzrə faiz dərəcəsi 9-dan 12-yə qaldırıldı. Əmanətlərin Sığortalanması Fondu tərəfindən məhz qeyd olunan zamanda atılan bu addım olduqca yerinə düşdü. Belə ki, bir tərəfdən manatın devalvasiyası, digər tərəfdən isə bu ildən banklardakı əmanətlərdən gəlirlərə verginin tətbiqi şəraitində qorunan depozitlər üzrə faiz dərəcələrinin qaldırılması fonunda bu, ilk növbədə banklardan vəsaitlərin çəkilməsinin qarşısını almağa, ikincisi də real şəraitdə vəsaitlərin yenidən yerləşdirilməsi tendensiyası zamanı əlavə stimul yaratmaq üçün məqsədəuyğun addım idi".

**P.Heydərov qeyd edib ki, ancaq göründüyü kimi, əmanətlər yenə azalmaqda davam edir:** "Yeri gəlmişkən, daha bir tendensiyanı da qeyd edək: ölkədə fəaliyyət göstərən kommersiya banklarında manatla yerləşdirilən depozitlərin həcmi 2015-ci il may ayının 1-nə 45 milyard 80 milyon 300 min manat təşkil edib ki, təkcə aprel ayı ərzində bu göstərici 5 milyard 12 milyon 300 min manat və ya 10 faiz azalıb. Cari ilin əvvəli ilə müqayisədə isə sözügedən azalma 26 milyard 95 milyon 500 min manat və ya 37 faiz təşkil edib. Ümumiyyətlə, bu ilin yanvar-aprel aylarına olan məlumata əsasən əhalinin banklarda olan əmanətlərinin həcmi 77 milyard 17 milyon 200 min manat olub ki, bunun da 54 milyard 72 milyon 200 min manatı, yəni 70 faizdən çox hissəsi xarici valyutadan ibarət olub. Başqa sözlə desək, banklardakı əmanətlərin strukturunda xarici valyutanın çəkisi yanvarda 40 faiz təşkil edirdisə, fevralda 62,3-ə, martda 65,3-ə, apreldə isə 70,9 faiz səviyyəsinə çatıb. Həmçinin, bankların kredit qoyuluşu da azalıb. Bir ay ərzində kredit qoyuluşu 127.2 milyon manat azalıb. Son statistikaya əsasən hazırda ölkə banklarının kredit qoyuluşu 19877.6 milyon manat təşkil edir. Bu sahədə də azalma əmanətlərdə olduğu kimi martdan başlayıb. Belə ki, yanvarda və fevralda ümumi kredit qoyuluşunda artım müşahidə olunsa da martda vəziyyət dəyişdi. Apreldə kredit qoyuluşunda azalma bir az da sürətlənib. Səbəb isə aydındır: bu, bir tərəfdən Mərkəzi Bankın fevral ayının 21-i tarixdəki qərarından sonra bankların obyektiv olaraq düşdükləri müvafiq çətinliklərdən irəli gəlirsə, digər tərəfdən təbii ki, əhalinin əmanətləri ilə əlaqədar proseslərdən qaynaqlanır. Odur ki, əmanətlərin azalması prosesinin qarşısı təcili olaraq alınmalıdır. Əks təqdirdə, kreditləşdirmədə eniş sürəti getdikcə sürətlənəcək və faizləri aşağı salmaq çabaları nəinki heç bir nəticə verməyəcək, hətta daha da artacaq. Yeri gəlmişkən, neftin qiyməti 60 dollardan aşağıdır. Bu cür qiymət səviyyəsi uzun müddət qalarsa, ilin sonuncu 3 ayı ərzində Mərkəzi Bank manatın növbəti dəfə ucuzlaşdırılmasına gedə bilər. Bu isə əhalinin real gəlirlərinə daha ağır zərbə vuracaq. Demək, banklara əmanət qoyuluşunun artması haqda da ümumiyyətlə söhbət aparmaq mümkün olmayacaq".

❑ **Röya RƏFİYEVA**

# Dolların müstəqil Azərbaycanda məzənnəsi:

## 77 qəpikdən bu günəcən...

**Transparency.az saytı son 20 ildə Azərbaycanda ABŞ dollarının məzənnəsinin necə dəyişdiyinə dair arayış hazırlayıb. Arayışdan bəlli olur ki, 2015-ci ilin iyul ayına olan kurs 20 ilin uyğun dövrləri arasında ən yüksək göstəricidir. Yəni son 20 ildə Azərbaycanda dollar heç vaxt indiki qədər baha olmayıb.**

Məsələn, 1995-ci ilin iyul ayında 1 ABŞ dolları 4465 manata satılıb. 1 yanvar 2006-cı ildə Azərbaycan manatında 5000:1 nisbətində denominasiya aparıldığını nəzərə alsaq, 4465 manat 89 qəpik edir. Deməli, indiki pulla götürsək, 1995-ci ilin iyul ayında 1 ABŞ dolları 89 qəpik olub.

1996-cı ilin iyul ayında 1 ABŞ dolları 4304 manat olub ki, bu da indiki pulla 86 qəpik edir.

1997-ci ildən Azərbaycanda dollar ucuzlaşmağa başlayıb. Həmin ilin iyulunda 1 ABŞ dolları 3970 manat (indiki pulla 79 qəpik), 1998-ci ilin iyulunda isə 3862 manat (77 qəpik) olub.

1999-cu ildən dollar yenidən bahalaşıb. Həmin ilin iyul ayında 1 ABŞ dolları 4250 manat (85 qəpik), 2000-ci ilin iyulunda 4475 manat (89 qəpik), 2001-ci ilin iyulunda 4651 manat (93 qəpik), 2002-ci ilin iyulunda 4877 manat (97 qəpik), 2003-cü ilin iyulunda 4922 manat (98 qəpik), 2004-cü ilin iyulunda 4907 manat (98 qəpik), 2005-ci ilin iyulunda 4704 manat (94 qəpik) olub.

2006-cı ilin yanvarından Azərbaycan manatında 5000:1 nisbətində denominasiya aparılıb, yəni əvvəlki 5000 manat yeni pulla 1 manat olub. Həmin vaxtdan 1 ABŞ dollarının kursu aşağıdakı kimi dəyişib:

2006-cı il, iyul: 1 ABŞ dolları - 0.8941 manat

2007-ci il, iyul: 1 ABŞ dolları - 0.8553 manat

2008-ci il, iyul: 1 ABŞ dolları - 0.809 manat

2009-cu il, iyul: 1 ABŞ dolları - 0.8043 manat

2010-cu il, iyul: 1 ABŞ dolları - 0.8036 manat

2011-ci il, iyul: 1 ABŞ dolları - 0.7869 manat

2012-ci il, iyul: 1 ABŞ dolları - 0.7856 manat

2013-cü il, iyul: 1 ABŞ dolları - 0.7844 manat

2014-cü il, iyul: 1 ABŞ dolları - 0.7844 manat

Göründüyü kimi, denominasiyadan sonra dolların kursu aşağı düşməyə başlayıb. 2006-cı ilin iyulunda 89 qəpik olan 1 ABŞ dolları 2007-ci ilin iyulunda 85 qəpiyə, 2008-ci ilin eyni ayında isə 80 qəpiyə enib. 2009-2010-cu illərdə dolların kursu təxminən bu səviyyədə qalıb. Sonradan daha da aşağı düşərək 2011-2014-cü illərdə təxminən 78 qəpik olub.

Mərkəzi Bankın İdarə Heyətinin 21 fevral 2015-ci il qərarı ilə 1 ABŞ dollarının rəsmi məzənnəsi 1.05 manat səviyyəsində müəyyən edilib.

2015-ci ilin iyul ayında 1 ABŞ dolları 1 manat 4 qəpikdən bahadır. Son 20 ildə nə denominasiyaya qədər, nə də denominasiyadan sonra dollar belə baha olmayıb.

**Azərbaycan manatı 1992-ci ilin avqustunda dövriyyəyə buraxılıb. 1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində 1 manat:10 rubl nisbətində rubllar ilə paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunub. 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat 5000 köhnə manata bərabər tutulub. 2007-ci il yanvarın 1-dən yeni manata tam keçid təmin edilib.**

❑ **Xəbər xidməti**



YENİ MÜSAVAT
N 148 (6176) 9 iyul 2015

# 17 yaşlı qızı qardaşı öldürdü

## Qızılburundakı dəhşətli qətlə aparan yol haqda şok detallar

**Hacıqabulun Qızılburun kəndində yolun kənarında qadın meyiti yandırılıb. Hadisə iyulun 5-də baş verib. Olay haqda polisə məlumat verən isə elə qatilin özü olub. Bakıdakı polis bölmələrindən birinə gələn 1997-ci il təvəllüdlü Mingəçevir şəhər sakini Namaz Hadıyev özündən 1 yaş balaca olan bacısı Gövhəri öldürdüyünü və yandırdığını deyib. Onun verdiyi məlumatın yoxlanılması üçün dərhal əməliyyat istintaq qrupu yaradılıb və özünün iştirakı ilə qeyd etdiyi əraziyə baxış keçirilib. Həqiqətən də ərazidə yanmış insan cəsədi aşkar olunub. Hacıqabul rayon Məhkəmə Tibb Ekspertizasına aparılan cəsədə ilkin baxış zamanı üzərində 40-a yaxın bıçaq xəsarəti müəyyən olunub.**



18 yaşlı Namaz Hadıyev belə bir ağır cinayətə imza atmasının səbəbini istintaqçılara danışıb. Deyib ki, ailələri Mingəçevir şəhəri, Üzeyir Hacıbəyov küçəsi 80/55 ünvanında yaşayır. Bacısı Gövhər 2014-ci ildə evdən qaçıb. Sonradan onun Bakıda yüngül əxlaqlı qadınlara qoşulması haqda məlumat alıb. N.Hadiyev deyib ki, bacısını axtarsa da, tapıb onu evə qaytara bilməyib. İyulun 4-də isə telefonuna gizli nömrədən zəng gəlib. Dəstəyi qaldıran N.Hadıyev bacısının səsini eşidib. G.Hadıyeva qardaşına deyib ki, evdən qaçdığına görə çox peşmandır, bağışlanılmasını və evə qayıtmasına icazə verilməsini istəyir. N.Hadiyev bacısına deyib ki, onu bağışlayır. Bundan sonra G.Həsənova evə qayıtmağa pulunun olmadığını deyərək Bakıda, Biləcəri qəsəbəsində olduğunu söyləyib. N.Hadıyev Bakıya gələrək bacısı ilə Biləcəridə görüşüb və taksi tutaraq Mingəçevirə yollanıblar. N.Hadıyev istintaqçılara deyib ki, bacısı ona zəng edəndən sonra o namusunu təmizləmək qərarını verib. Belə qərara gəlib ki, bacısını evə gətirmək adı ilə taksiyə oturdub yola çıxacaq, yolda uyğun yer tapıb onu taksidən düşürəcək və öldürəcək. Belə bir yer kimi o, Hacıqabulun Qızılburun kəndinin ərazisini seçib. Ərazidə arabir maşın ötürmüş, gediş-gəliş az olub. Bunun üçün yolda taksi sürücüsü ilə qəsdən mübahisəyə girişib və Qızılburun kəndi ərazisində sürücüdən maşını saxlamağı tələb edib. Sürücü ilə hesablaşandan sonra onun ərazidən uzaqlaşmasını gözləyib.

N.Hadiyev deyib ki, bacısının heç nədən şübhələnməməsi üçün sürücü ilə mübahisə edib. Taksi gözdən itəndən sonra isə N.Hadıyev cibində gizlətdiyi bıçağı çıxararaq bacısına hücum edib. Onu öldürdükdən sonra kol-kosu üzərinə yığaraq yandırıb və heç nə olmamış kimi Bakıya gəlib. Lakin gözü önündən bacısının yalvarışları, ondan aman diləməsi səhnəsi çəkilməyib. Qətldən 2 gün sonra polisə müraciət edən N.Hadıyev üzərindən namus ləkəsini təmizlədiyini söyləyib.

**Faktla bağlı Hacıqabul Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.**

**❑ E.MƏMMƏDƏLİYEV**



## Bakıda dəhşət: hamilə arvadını döyüb uşağını saldı

**20 yaşlı qadın ərindən polisə şikayət edib. Xətai Rayon Polis İdarəsindən lent.az-a verilən məlumata görə, bu rayonun M. Hadi küçəsində yaşayan 1995-ci il təvəllüdlü Kişvər Quliyeva Masallı Rayon Polis Şöbəsinə şikayət edərək bildirib ki, yaşadığı evdə əri, 1985-ci il təvəllüdlü Elnur Cabbarov tərəfindən döyülüb. O, Masallı Rayon Mərkəzi Xəstəxanasına müraciət edib.**

Bu zaman məlum olub ki, 20 yaşlı qadının 6 həftəlik hamiləliyi pozulub. Faktla bağlı polis ərizə üzrə araşdırma aparır.

## Bakıdan Salyana qonaq getdi, evini yardılar

**Bakıda oğurluq hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, Bakıxanov qəsəbəsi S.Cabbarov küçəsi ev 4, mənzil 22-də yaşayan Svetlana Allahverdiyeva polisə müraciət edib. O, müraciətində iyunun 30-da Salyan rayonuna getdiyini və iyulun 7-də Bakıya qayıtdığı bildirib. S. Allehverdiyeva evə gələrkən naməlum şəxslərin evdən 500 AZN pulunu və qızıl boyunbağı oğurladığını bildirib. Oğrular evə plastik pəncərəni açmaq yolu ilə daxil olublar. Faktla bağlı polis ərizə üzrə araşdırma aparır.**

## Nabranda kütləvi dava: ölən var



**Xaçmazda qətl hadisəsi baş verib. Hadisə rayonun Nabran istirahət zonasındakı "Dostluq" turizm bazasının ərazisində qeydə alınıb. Hadisənin şahidlərinin bildirdiyinə görə, gənclər arasında baş verən kütləvi dava qanlı sonluqla nəticələnib. Münaqişə zamanı 26 yaşlı Xaçmaz şəhər sakini Məmmədov Famil Fərhad oğlu qətlə yetirilib. Mərhumun taksi sürücüsü olduğu və bir bıçaq zərbəsi ilə qətlə yetirildiyi bildirilib. Nəzir Səmədov adlı hadisə şahidi deyib: "Uzaqdan gördüm ki, orada dava qopdu. Sillə, təpik, yumruq... Onların içərisindən dolu-fason bir oğlan ayrıldı, qaçıb gəldi, burada yıxıldı. Elə bildim ki, ayağı ilişib yıxıldı. Ayağa qalxdı, 10 metr sonra yenə yıxıldı. Yoldaşımı dedim ki, vallah, deyəsən, onu vurublar".**

Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən şəxs qismində Biləsuvar rayon sakini Abbaslı Ramil Etibar oğlu saxlanılıb.

Faktla bağlı Xaçmaz rayon prokurorluğunda cinayət işi açılıb. Araşdırmalar davam etdirilir (Region TV).

## Moskvada azərbaycanlı öldürüldü

**Moskva polisi taksi sürücüsünün ölümündə şübhəli bilinən şəxsləri axtarır. Bu barədə AzVision.az Rusiya KİV-nə istinadən xəbər verir. Məlumatda qeyd olunur ki, taksi sürücüsünün meyiti Moskva Dövlət Universitetinin kitabxanasının binası yaxınlığında olan avtomobilində tapılıb. İlkin məlumatlara görə, naməlum şəxslər ona bıçaqla ölümcül xəsarət yetiriblər. 36 yaşlı Şahlar Quliyev Moskvaya Azərbaycandan gəlib və universitetin yerləşdiyi ərazidə taksi sürücüsü işləyib.**

O, taksi sürücüsü idi. Normal işləyirdi. Heç bilmirəm nəyə görə! Yaxınlıqda metro ərazisində dururdu. Mən hərdən onunla əlaqə saxlayırdım. Hətta hara getdiyini və nə işlə məşğul olduğunu bilmirdim' - deyə ölən şəxsin qohumu bildirib. Hazırda hadisənin baş verməsəbəbləri dəqiqləşdirilir.

## Bakıda polisi və onun həyat yoldaşını döydülər

**Bakıda xuliqanlıq hadisəsi baş verib. Metbuat.info xəbər verir ki, Sabunçu Rayon Polis İdarəsindən (RPİ) APA-ya verilən məlumata görə, Sabunçu RPİ Post Patrul Xidməti Bölüyünün polis serjantı, Elnur Böyükağa oğlu Əzizov və həyat yoldaşı, 1983-cü il təvəllüdlü Nuriyyə Gülbala qızı İsgəndərova naməlum şəxslər tərəfindən döyülüb.**

Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törədən şəxslərin Bakı şəhər sakinləri, 1964-cü il təvəllüdlü Zakir Vəli oğlu Səfərov və 1959-cu il təvəllüdlü Əbülfəz Vəli oğlu Səfərov olduğu müəyyən edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 221.3 (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

*** Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
*** Cinsi marağın** və **cinsi aktların** azalması
*** Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
*** Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
*** Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
*** Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
*** Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
*** Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
*** Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
*** Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
*** Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
*** Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
*** Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
*** Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
*** Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
*** Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
*** Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**

Azercell

## «Azercell» şəbəkəsi güclənməkdə davam edir

### Şirkət baza stansiyalarının sayını 4834-ə çatdırdı

«Azercell Telekom» həm abunəçi sayına, həm də təqdim etdiyi rabitə xidmətinin keyfiyyətinə görə Azərbaycanın lider mobil operatoru olmaqda davam edir. «Azercell»in təklif etdiyi keyfiyyətli rabitə abunəçinin harada olduğundan asılı olmayaraq öz yaxınları ilə hər zaman rahat əlaqə qurmaq imkanı deməkdir. 2014-cü ildə 169-dan çox 2G/3G Radio Baza Stansiyası quraşdıran və 3G şəbəkəsinin tutumunu rekord səviyyədə (ölkə üzrə 48%, Bakı şəhəri üzrə 92%) gücləndirən şirkət bu ilin əvvəlindən indiyə qədər yeni 2G, 3G və 4G baza stansiyasını abunəçilərin istifadəsinə verib. Təkcə iyul ayı ərzində «Azercell» 10 sayda 2G, 36 sayda 3G baza stansiyası quraşdırıb. Ümumillikdə, hal-hazırda ölkə ərazisində «Azercell»in 2690 sayda 2G, 1880 sayda 3G və 264 sayda 4G baza stansiyası mövcuddur. Hər zaman abunəçilərini yüksək səviyyəli xidmətlə təmin etmək üçün öz şəbəkəsini təkmilləşdirən «Azercell» toplam 4834 baza stansiyası ilə fəaliyyət göstərir. Məlumat üçün bildirək ki, Azərbaycanın ən geniş və güclü şəbəkəsinə sahib olan və daima keyfiyyəti ilə seçilən «Azercell Telekom» son iki il ərzində öz şəbəkəsini 25% faiz daha da gücləndirib.

Bir sıra innovativ konsepsiyaları ilk olaraq Azərbaycana gətirən «Azercell» ölkədə ilk dəfə olaraq GSM texnologiyası, GPRS/EDGE, həmçinin, 4G şəbəkəsini təqdim edib. Şirkətin təşəbbüsü ilə Azərbaycanın bir neçə universitetində 3G və 4G sınaq laboratoriyaları yaradılmışdır.

«Azercell» hər zaman olduğu kimi öz abunəçilərini ən qabaqcıl texnoloji yeniliklər və keyfiyyətli rabitə sisteminin üstünlüklərindən faydalanmasını təmin etməkdədir.

Daha ətraflı məlumat üçün news@mcs.az

# Tövlədə yaşayan şəhid anası prezidentdən kömək istədi...

**O, Bakının mərkəzində, onlarla villanın əhatəsində yerləşən bağda yaşayır. Yaşıllığın, ağacların əhatəsində, ancaq villada deyil, heyvan tövləsində... O, bir şəhid anasıdır, bir oğlunu 23 il əvvəl Qarabağda itirib. Bir övladı da Qarabağ müharibəsi veteranıdır. Hazırda kimsəsiz halda küçələrdə yaşama təhlükəsi ilə üz-üzədir. Hələ ki qonşunun tövləsində, tövlədən düzəltdiyi daxmada gecələyir. Sonrasının necə olacağını bilmir... onun vaxtı ilə yaşadığı vaqona və torpağına isə ətrafda bir neçə dəbdəbəli villası olan şəxslər göz dikiblər. Onların məmurlarla razılaşması isə şəhid anasını küçələrə salıb...**

## Firəngiz Məmmədova: "Quldurlar bağımı əlimdən almaq istəyir..."






ЛЕ-63
21.01.06

**Şəhid anası Firəngiz Məmmədova** bildirir ki, mülkiyyətində olan 9 sota yaxın torpağı əlindən almaq istəyirlər: "Almaq deyəndə ki, artıq başqasının adına da sənədləşdiriblər. Polis, məhkəmə, bütün aidiyyəti qurumlar buna göz yumur, susur. Mənimsə haqqım tapdanır, övladlarım hərəsi bir küncdə yaşayır, mənsə tövlədən düzəldilən bu daxmada..."

Onun oğlu 1992-ci il noyabrında Qarabağ döyüşlərində həlak olub. Üstəlik, həyat yoldaşını da 2012-ci ildə uzun sürən xəstəlikdən sonra itirib. Onlarla villaları olan məmurlar isə onun bağına göz dikərək küçələrdə yaşamasına səbəb olublar. F.Məmmədova deyir ki, həyat yoldaşını müalicə etdirmək üçün Bakı şəhərinin Nizami rayonunda yerləşən mənzillərini satıblar. Bundan sonra isə Nizami rayonunda, Yavər Əliyev küçəsində yerləşən həyətyanı sahədə yaşayıblar: "Ev tikmək imkanımız olmadı, qonşuların verdiyi vaqonda yaşadıq. Vaqonun yerləşdiyi torpaq özümündür. Ancaq artıq torpağa kimlərsə göz dikib və məni oradan çıxarırlar. Ailəmiz bu torpaq sahəsindən 40 ildir ki, istifadə edir, əkib-becərir. Burada 9 sot torpaqda geniş bağ salmışıq. Buradakı ağacların bir neçəsini şəhid olan oğlum əkib. Mənə həm də oğlumun əkdiyi ağacları kəsəcəkləri ilə təsir etməyə çalışırlar. Burada yeni villa tikmək həvəsinə düşüblər. Məni torpaq sahəmdən qovub çıxarıblar və aylardır ki, qonşunun tövləsində yaşayıram. Qonşu kiçik tövləsini abıra salıb, mənim müvəqqəti yaşamağım üçün daxma kimi düzəldib, orada yaşayıram".

**Onun sözlərinə görə, 2006-cı ildə torpağa mülkiyyət hüququnu təsdiq etmək üçün Nizami Rayon İcra Hakimiyyətinə müraciət edib müsbət cavab da alıb. Ancaq üç il əvvəl yaxınlıqda bir neçə villası olan qonşuları həmin ərazini də almaq istəyib:** "Mənə dedilər ki, buradan çıx, Hövsanda kiçik torpaq sahəsi verək, razılaşmadım. Üç il əvvəldən mənə qarşı hədələr, təhdidlər başladı. Hətta yaşadığımız vaqon evi gecə ikən oğurladılar. Müraciət etdiyim Nizami Rayon 25-ci polis bölməsi isə şikayətimə baxmır. Artıq bağdakı əkin-biçin sahəmi dağıdıblar. 2015-ci il aprelin 9-da isə gecə ilə gəlib əşyalarımı maşına doldurub bağdan çıxarıblar. Dolanmaq üçün yaslarda yemək bişirirəm, bir neçə böyük qazanım var. Bu qazanları da harasa aparıblar, qaytarmırlar. Məni isə hədələyirlər, bağdan çıxmağımı tələb edirlər. Rəsmilər, aidiyyəti qurumlar isə nəinki şikayətimə baxır, əksinə, onları müdafiə edirlər. Təsəvvür edin, bir neçə nəfər qəflətən bağa girib, mənim qollarımı tutaraq, pal-paltarımı, əşyalarımı maşına yükləyib apardılar. Polis isə bu cinayətə göz yumur, əksinə, mənə təzyiq göstərilir ki, şikayətimi geri götürüm. Polis bizimlə həmin adamların vəkilləri kimi danışır, qanunsuz, haqsız olaraq onları müdafiə edir. Artıq bizə bildirilib ki, həmin torpaq sahəsi başqasının adına rəsmiləşdirilib. Müvafiq qurumlar, əzilən vətəndaşa kömək etməli olan, onun haqqını qorumalı olan qurumlar quldurlarla əlbirdir. Ümidim prezidentdir ancaq..."

**Qeyd edək ki, F.Məmmədova dövlət başçısı İlham Əliyevdən tutmuş onlarla digər səlahiyyətlilərə müraciət edərək, kömək istəyib:** "Hətta Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərova da şikayət məktubu göndərmişəm. Şikayətlərimə cavab gözləyirəm. Polis həmin adamları himayə edir. Hətta Mamed adlı sahə müvəkkili mənə hədə-qorxu gəlir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanıma bir necə teleqram vurmuşam. Teleqramlar tədbir görülmək üçün Dövlət Neft Şirkətinə və Baş Polis İdarəsinə göndərilib. Torpağımı zəbt etməyə çalışanlardan biri Neft Şirkəti rəhbərliyi ilə bağlı adamdır. Valeh və Alim kimi özlərini təqdim edən bu adamlar deyirlər ki, Rövnəq Abdullayevin qohumlarıdır. Polis mayorları mənə zəng edərək tələb edirlər ki, şikayətimi geri götürüm. Dövlət başçısına, İlham Əliyevə müraciət edib kömək istəyirəm. Mənim haqqımın tapdalanmasına yol verməsin. Məni bu quldurlardan qorusun, haqqımı özümə qaytarsın. Quldurlar qanun qarşısında cavab versinlər".

**Məsələni diqqətdə saxlayacağıq. Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq.**

❑ **Röya RƏFİYEVA**

# Xolesterinli qida - səhhətin düşməni, yoxsa müttəfiqi?

## Məsələyə klassik baxışlar dəyişib; müasir təbabət onu orqanizm üçün vazkeçilməz sayır, bir şərtlə ki...

**Türkiyə kanallarında tez-tez gündəmə gələn professor, doktor Canan Karatay bu dəfə də öz məsləhətləri ilə diqqət çəkib. O, xolesterinin insan həyatı üçün təhlükəli olduğunu və bunun qarşısını almaq üçün insanların çörəkdən və şəkərdən imtina etməsinin vacib olduğunu bildirib.**



Professor şəkərin insan üçün ən şirin zəhər olduğunu bildirərək insanlara 2 dilimdən artıq çörək yeməməyi məsləhət görüb. Çörək yemədən doymayan inşaat işçilərinin isə doyması üçün çörəksiz 10 yumurta və 2 turp yeməli olduğunu bildirib. Yağların ürək böhranı, damar tıxanıqlığı, damar sərtləşməsi, xərçəng, şəkər xəstəliyi kimi xəstəliklərə səbəb olduğunu deyən C.Karatay kökəlməyin genetik olmadığını, yalnız 1980-ci ildən sonra kilolu insanların sayının artdığını bildirib. Bunun səbəbini isə şəkərdən istifadənin artmasında görən professor qarınlı insanların gizli şəkər xəstəsi olduğunu bildirib.

Qərbdə aparılan son elmi tədqiqatlar isə xolesterinin zərərləri haqda deyilənləri yalan və mif adlandırıb. Onların araşdırmasına görə, xolesterinin azlığı yaddaş pozğunluğundan xərçəngə qədər ən müxtəlif xəstəliklərə səbəb olurmuş. Elmi tədqiqatlar göstərib ki, çoxlarının zərərli bildiyi, müxtəlif pəhriz və müalicələrlə qurtulmaq istədiyi xolesterinin insan orqanizminə faydaları var. Üstəlik, onun azlığı insanın səhhətində müəyyən fəsadlara gətirib çıxarır. Xolesterinin əsas özəlliklərindən biri onun mikroblara qarşı aktiv mübarizə aparmasıdır. Bu maddə ana bətnindəki dölün beyin inkişafı, həmçinin mərkəzi sinir sisteminin normal funksiyası üçün də olduqca əhəmiyyətlidir. Təsadüfi deyil ki, xolesterinin 23 faizi məhz beyində toplanır.

Mövzunu araşdıran Rusiyanın tibb elmləri namizədi, həkim O.İ.Senyova bildirib ki, əgər əvvəlki nəsillər xolesterindən qurtulmaq üçün qatı pəhrizlər saxlasaydı, müasir insanın beyin funksiyaları xeyli geriləmiş olardı. Xolesterinin miqdarında kəskin azalma orta yaşlılarda və qocalarda ciddi yaddaş zəifliyinə səbəb olur. Xolesterinin azlığı orqanizmin stressə qarşı müqavimətini də zəifləşdirir.

Qida rasionunda heyvan mənşəli yağlar azalarsa, böyrəklər normadan artıq yüklənmiş olacaq. Yaşam üçün xolesterinin olması zəruridir. Əks halda böyrəklər bu maddəni karbohidratlardan almalı olacaq. Qidalarda xolesterinin azlığı böyrəklər üçün çox ciddi böhran deməkdir: miqdarın normadan az olması xərçəng riskini artırır, yaddaş zəifliyi yaradır, Parkinson xəstəliyinə, həmçinin insulta, aqressiyaya və bəzi hallarda özünüöldürmə həddinə gəlib çıxmağa səbəb olur. O.İ.Senyova illərdir iddia edilənlərin əksinə olaraq xolesterinin infarkta şərait yaratmadığını da deyir: "Xolesterinlə bağlı yayılan mif ona gətirib çıxarıb ki, sağlamlıq üçün faydalı olan heyvan mənşəli yağlar ürəyin düşməni elan olunub. Hətta ifrata varıb yumurtanın ağını yeməyənlər var. Halbuki yumurtanın ağı onun ən xeyirli hissəsidir".

**Rusiyalı həkimin sözlərinə görə, illərdir oturuşmuş yanlış informasiyanın qurbanları da olub. Onlardan biri də ABŞ-ın keçmiş prezidentlərindən biri Duayt Eyzenxaurdır:** "İlk infarktdan sonra həkimlər onu aşağı xolesterinli pəhrizə oturdublar. Pəhrizə baxmayaraq, xolesterinin miqdarı yüksəlməyə başlayıb".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** insanın xolesterinsiz keçinməsinin mümkün olmadığını bildirib: "Xolesterin orqanizmdə istifadə olunan plastik material kimi sərf edilən maddələrdən biridir. Təbii ki, insan xolesterinsiz keçinə bilməz. Amma söhbət ondan gedir ki, xolesterinin açıq parçalanma məhsulları var. Bu parçalanmadan sonra müxtəlif fraksiyalı, yüksək orta və aşağı sıxlıqlı lipoproteinlərə çevrilir. Aşağı sıxlıqlı lipoproteinlərin bədəndə çox olması sübut edib ki, hərəkətsiz orqanizmlərdə damarlarda problem yaranır. Damarlar köçür, tromblar yaradır və damarların daralmasına gətirib çıxarır. Buna görə də həddən artıq xolesterinli qidalar qəbul edən şəxslərdə ürək-damar xəstəlikləri tez baş verir. Söhbət xolesterinin zərərindən getmir. Söhbət hipodinamiyadan gedir. Bu qədər qida ilə bədənə qəbul olunan kalori hərəkət nəticəsində orqanizmdə sərf olunmalıdır. Sərf olunan kalori ilə qəbul edilən kalori arasında balans yaranır. Əsas bələ xolesterinli qidalardan sonra çox az hərəkətlilikdədir. İnsanlar istəyir ki, çox yesin və uzanıb yatsın. Bizim babalarımız da çoxlu qida qəbul ediblər. Amma onlar işləyiblər, fiziki işlər görüblər deyə, bədəndə yanma prosesləri gedib və xolesterin mübadiləsi sona qədər gedib və parçalama məhsulları qana keçməyib. Buna görə də onlar uzunömürlü olublar. Yeni problem xolesterinli qidalarda deyil, az hərəkətlilikdədir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 148 (6176) 9 iyul 2015



# İcazəsiz peçenye yeyən qızlarını meşəyə qovdular

Corciya ştatında valideynləri 14 yaşlı qızı evdən qovublar. Buna səbəb qızın icazəsiz "Pop-Tart" peçenyesi yeməsi olub. Qızcığaz evin yaxınlığında yerləşən meşəyə qovulub. 36 yaşlı Kristal Driqqers və 33 yaşlı Allen Driqqers uşaqlarına vəhşi qabanların də olduğu, evə yaxın yerdə yerləşən meşədə çadır qurmağı və bir həftə boyunca orda qalmağı tapşırıblar. Ona özü ilə ancaq əl fənəri, saat, fit və tualet kağızı götürməyə icazə veribler. Uşaq ancaq onun üçün müəyyən edilmiş saatda yemək dalınca evə gələ bilər. Qızı yerli sakinlərin görməsi ilə polisə xəbər verməsi bir olub. Həmin vaxt qız artıq 2 sutka imiş meşədə imiş. Hətta meşədə qaldığı günlərdən birində güclü fırtına qopub, amma bu, valideynlərin cəza qərarına təsir etməyib. Driqqerslərə qarşı valideyn öhdəliklərini yerinə yetirməməklə bağlı ittiham irəli sürülüb. Onların dörd uşaqlarını müvəqqəti olaraq nənə-babalarına veribler. Məhkəmənin yekun qərarından sonra uşaqların da, valideynlərinin də taleyi müəyyən olunacaq. Driqqers cütlüyü bodibildinqlə məşğul olublar. Ana "Çimərlik bədəni" adlı kampaniyaya sahib olub.

# Gündə 4 saat telefonla danışırlar

Cənubi Koreyalılar hər gün telefonla təxminən 4 saat danışırlar. Digieco & Nielsen Media Araşdırma qrupu tərəfindən 7 min 614 ağıllı telefon istifadəçisi arasında aparılan anket nəticəsində 30-40 yaş qruplarına daxil olan cənubi koreyalıların hər gün orta hesabla 3 saat 40 dəqiqə danışdığı müəyyənləşib. Eyni yaş qrupuna aid insanların eyni zamanda gündə bir saat internetdəki oyunlarla məşğul olduğu da qeyd edilib. O biri tərəfdən, anket nəticələrinə görə, 20 yaş qrupundakılar gündə orta hesabla 4 saat 41 dəqiqə telefonla danışır və gündə təxminən 1 saat mesajlaşırlar. Hər iki yaş qrupuna aid insanlar isə həftə sonları daha az mesajlaşırlar. Bu qrupdakılar həftə sonları daha çox internetdə oyun oynamağı tərcih edir.




# Mavi gözlülər alkoqola meylli olur



ABŞ-ın Vermont Universitetində həyata keçirilən bir araşdırmada qəribə nəticələr əldə edilib. Araşdırmaya görə, göz rəngi mavi olan insanlar daha çox spirtli içki qəbul edirlər. Mavi gözlülər potensial alkoqolik olaraq təqdim olunur. Nəticələrə genetik araşdırmalar səbəb olub. "Focus Online"da yer alan xəbərdə qeyd edilir ki, mavi gözlülərlə paralel olaraq, gözü rəngli olanlar üçün də bu nəticə keçərlidir. Belə ki, insanlara göz rəngini verən genlər onların alkoqola meylliliyinə də təsir göstərir. Amma alimlər onu da bildirib ki, araşdırmanın test nəticələri bu cür çıxsa da, bu sahədə daha ciddi araşdırmalar aparılmalıdır. Göz rəngi ilə xarakter arasında bir əlaqə olub-olmaması da araşdırmaların mövzularından biridir.

# Universitetdən 100 beyin oğurlanıb



Texas Universitetindən 100 banka itib. Bankaların içində formal olaraq saxlanılan insan beyninin nümunələri olub. Universitetin alimləri kolleksiyanı təxminən 30 ildir ki, yığırmışlar. Universitetə orqanlar Ostina dövlət xəstəxanasından daxil olub. Məlum kolleksiyanın universitetdə etibarlı şəkildə saxlanacağı güman edilsə də, gözlənilən baş vermədi. Kolleksiyanın kuratoru Tim Şalert bildirib ki, oğurlanan nümunələr psixologiya kafedrasında saxlanıb. Kolleksiyanın zirzəmidə saxlanan hissəsinə isə əl vurulmayıb. Universitet işçiləri hesab edirlər ki, oğru tələbələrdən biri ola bilər. Oğurlanmış kolleksiya eksponatlarından biri Texas snayperi Çarlz Uitmenin beyni olub.



# İlan alimi yeməkdən imtina etdi

Discovery Channelin efirində nümayiş etdirilən eksperiment zamanı ilginc hadisə baş verib. Belə ki, anakonda eksperimenti həyata keçirən alimi "yeməkdən" imtina edib. İri bir ilan tərəfindən yeyilmənin necə bir hiss olduğunu araşdırmaq istəyən alimin adı isə Pol Rozoli olub. Geyindiyi xüsusi kostyum onun sağ və zərərsiz qalmasına yardım edəcəkdi. Amma anakondanı araşdırma qrupu aldada bilməyib. Belə ki, ilan onu yeməkdən imtina edib, sadəcə qolunu və çiynini möhkəm sarıb. "Sarılmalar" möhkəmlənəndə isə alim özünü ilandan azad edib və eksperimenti dayandırıb. Ötən ilin dekabrında alim təcrübə zamanı bir saat ilanın içində olmağı başarıb. Bu təcrübə ilə bağlı o, təəssüratlarını belə ifadə edib: "Axırıncı xatırladığım şey ilanın mənim üzümün qabağında geniş açılan ağzı idi. Ondan sonra hər şey qaraldı".




**QOÇ** - Astroloji göstəricilərə inansaq, bu gün hansısa əlamətdar bir hadisənin şahidi olmalısınız. Odur ki, belə sürprizlərə hazırlaşın. Sağlamlığınıza diqqət yetirməyi də unutmayın.

**BUĞA** - Olduqca rəvan gündür. Ulduzlar müdafiənizdə durduğundan qarşıya qoyduğunuz ədalətli məqsədləri reallaşdıracaqsınız. Şəxsi büdcənizdə müəyyən artımlar da gözlənilir.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə təzadlı bir gün yaşayacaqsınız. Həm xoş, həm də müəyyən qədər gərgin məqamların daşıyıcısı olacaqsınız. Tərəfinizi saxlayanlara dönük çıxmayın.

**XƏRÇƏNG** - Bəxtinizdə əsl biznes günü durur. İştirakçısı olduğunuz hər bir proses ürəyinizcə olacaq. Yeni təkliflərə laqeyd yanaşmayın. Saat 16-19 arası sevindirici hadisələrin şahidi olacaqsınız.

**ŞİR** - Risk etməyə dəyməz. Çünki bu təqvimdə qeyri-ənənəvi fəaliyyətlə məşğul olmaq uğurlu deyil. Yaxşı olar ki, əsas vaxtınızı ürəyinizə yaxın olan şəxslərlə birlikdə keçirəsiniz.

**QIZ** - Ulduzların düzümü gün ərzində maddi durumunuzun xeyli yaxşılaşacağını bəyan edir. Günün ikinci yarısı isə bu istiqamətdə xüsusilə əlverişlidir. Aldığınız dəvətlərdən imtina etməyin.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə sürprizlərlə dolu saatlar yaşayacaqsınız. Amma şəxsi işlərinizə müdaxilə edən adamlardan uzaq olmağa çalışmalısınız. Özünüz də yalan vədlər verməyin.

**ƏQRƏB** - Təxminən saat 15-ə qədər bəzi xoşagəlməzliklərlə rastlaşma ehtimalınız var. Əlelxüsus da qarşılıqlı münasibətlərdə ehtiyatlı olmalısınız. Sonrakı saatlar nisbətən sakit ötüşəcək.

**OXATAN** - Ətrafınızda olan insanlar nə qədər səmimi davranarsa, günün ümumi mənzərəsi bir o qədər ürəyinizcə olacaq. Bu səbəbdən də ünsiyyətdə olduğunuz hər kəsin xoşrəftar olması vacibdir.

**OĞLAQ** - Astroloji göstəricilər sevgi dolu bir gün yaşayacağınızı bəyan edir. Qarşı tərəfin tələblərinə ədalətli yanaşın. Bu təzadlı təqvimdə dedi-qodudan uzaq olun.

**SUTÖKƏN** - Özünüzü tənha hiss etməyin. Yoxsa günaha batarsınız. Ən azı ona görə ki, sizə qarşı rəğbət bəsləyənlər az deyil. Fikrinizi dağıtmaq üçün nahardan sonra gəzinti və qonaqlıqlarda olun.

**BALIQLAR** - Təzə xəbərlər eşidəcəyiniz gözlənilir. Bu, yeni təklif və ya dəvətlər şəklində də ola bilər. Hər halda, hər üç amilə hazır olmalısınız. Axşama yaxın münasibətlərdə ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Selfie çəkdirdiyi üçün öldü



Britaniya vətəndaşı selfi çəkdirərkən əlində tutduğu selfi çubuğunu ildırım vurub. İldırım vuran adam yerindəcə ölüb.

Lenta.ru saytının xəbərinə görə, insident 5 iyunda Uelsin cənubunda yerləşən Brekon-Bikons parkında baş verib. Şahidlərin sözünə görə, qasırğalı havada bir qrup şəxsin dağın başında selfi çəkdirirdi. Həmin gün hadisə yerində iki nəfər ölüb. İkinci şəxsin ölüm səbəbi dəqiqləşdirilir. Daha iki nəfər travma alaraq xəstəxanaya çatdırılıb. Təhlükəsiz selfi çəkdirmək probelmi artıq dünyanın müzakirə obyektinə çevrilib. Rusiya DİN-i hətta bu haqda məktəblilər üçün yaddaş kitabçaları çap etməyə başlayıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300